# *MOLLA NƏSRƏDDİN*



http://www.kitablar.com
http://www.kitablar.org/

AŞI MOLLANIN, BAŞI MOLLANIN
Bir molla çayın kənarında əyləşmişdi, gördü ki, suyun
üzü ilə çay axını bir neçə motal üzüb gəlir. Tez soyunub girdi suya, motalların ikisini tutdu, ikisi də ona yaxınlaşdı.
Molla əlindəkilərin hərəsini bir ayağına keçirtdi, yaxınlaşan iki motalı da tutdu. Gördü ki, uzaqdan bir motal da gəlir, əlindəkilərdən birini dişinə alıb onu da tutdu. Bu zaman suda bir motal da göründü. Ancaq molla nə qədər can atdısa,
altıncı motalı tuta bilmədi.
Çaya gələn bir kişi əl uzadıb motalı tutanda, molla fısfısla dedi:
- A kişi, motala şərikəm a!..
Odur ki, deyiblər:
Aşı mollanın, başı mollanın,
altıdan beşi mollanın,
yerdə qaldı bir dənə,
onda da var işi mollanın.

CAVAB
Keçmiş zamanlarda uşaqlar mollaxanalarda oxuyanda, əvvəlcə onlara çərəkədən (Qur'anın otuzuncu cüz,i) dərs verirdilər. Çərəkə də hüvəlfəttahül-əlimdən başlayıb, əmməyetəsaəlunə surəsində qurtarırdı.
Hansı uşaq ki, çərəkəni oxuyub başa vurdu, molla üçün mütləq xələt gətirməli idi. Xələtin dəyəri uşağın valideyninin qüvvəsindən asılı idi. Lap azı bir kəllə qənd, bir dəst köynəktuman, bir manat da pul olmalı idi.

Kasıb bir kişinin oğlu da mollaxanada oxuyurdu. Uşaq
Əmmə sürəsinə çatanda molla üçün heç nə gətirmir. Molla tez bir kağıza yazıb uşağın atasına göndərir. Kasıb kağızı açıb oxuyur:
«Söylə bir, fikrin nədir?!
Oğlun çatıbdır Əmməyə!»
Kişi də kağızın ardında bu sözləri yazıb mollaya göndərir:
«Əhmədin fikri budur: Pul yoxdur versin mollaya!»

## QAZI VƏ XORUZ

Qazının həyətində axsaq bir xoruz var idi. Bir gün
həyətdə eşələnərkən xoruz bir manqur («qara yarım
qəpiklik») tapır. Xoruz manquru dimdiyinə götürüb həyətin ortasına qoyur və banlamağa başlayır:
«Quqqulu-qu, bir dənə manqur tapmışam!» Qazı adamlarını göndərdi, manquru xoruzdan aldılar.
Xoruz yenə banladı: «quqqulu-qu, qazı mənə möhtacmış»
Qazı adamlarına dedi: «Aparın, xoruzun manqurunu
qaytarın»
Xoruz manquru alıb yenə banlamağa başladı:
«Quqqulu-qu, qazı məndən qorxarmış!»
Qazı yenə öz adamlarına dedi: «Bu xoruz məni təngə
gətirdi. Gedin, başını kəsin, bişirib plovun üstünə qoyun.
Onu yeyəcəyəm».
Xoruzun başını kəsəndə o yenə bərkdən banlayıb dedi:
«Quqqulu-qu, nə iti bıçaqmış!»
Xoruzun başını kəsəndən sonra qazana salıb bişirdilər.
Xoruz qazanda da banladı: «Quqqulu-qu, nə isti hamamdır!»
Plovu bir böyük nimçəyə çəkib xoruzu üstünə qoydular.
Xoruz banladı: «Nə ağca təpədir!»
Qazı xoruzu parçalayıb yeməyə başladı. Çeynəyib
udanda xoruz banladı: «Nə darca küçədir!» ..Xoruz
plovqarışıq qazının qarnına düşəndə bir də banladı:
«Quqqulu-qu, nə lehmə dərədir!»
Qazı o qədər yedi ki, qarnı partladı. Xoruz qazının
qarnından çıxıb banladı: «Quqqulu-qu, qazının qarnı yırtıldı, mənim canım qurtuldu!»

## ALLAH QƏZƏBİ

Şəhərdən kənar bir ibadətgahda bir abid gecə-gündüz
ibadətə məşğul idi. Qardaşı şəhərdə yaşayırdı, özü də
məşhur tacir idi. Bunun qızına kasıb bir oğlan aşiq olub, ona elçi göndərmişdi. Amma qızın atası «oğlan kasıbdır» deyə, qızını ona verməmişdi. Qızın atası başa düşmüşdü ki, qız da oğlanı istəyir. Buna görə də qızını abidin yanına göndərir ki,
bir qədər əmisinin yanında qalsın, ondan tərbiyə alsın ki, bəlkə bu sevda başından çıxsın. Bir gün oğlan bu işdən xəbər tutur, gizlincə qız olan
yerə gedir. Abid namaz qılan zaman oğlan qapını açıb içəri girir. Qız oğlanı görcək qalxır, onunla qucaqlaşıb öpüşür.

Qızın əmisi namaz üstə nə qədər «Allahü-əkbər»
deyirsə də qız oğlandan ayrılmır. Abid namazını qılıb
qurtaranadək oğlan qaçıb gedir. Abid qardaşı qızını
məzəmmət etməyə başlayanda qız deyir:
- Əmi, məgər sən bizi görürdün?
Əmi hirslənir:
- Bu boyda da zurna-balabanı görməmək olar?
- !Qız gülüb deyir:
- Amma mən səni görmürdüm. Özün bilirsən ki, aşiq
ancaq mə,şuqunu görər. İncimə əmi, əgər sən həqiqi allah aşiqi olsaydın namaz üstündə bizi görməməli idin. Deməli, sən yalançı aşiqsən!
Qardaşı qızının sözləri abidə bərk tə'sir edir, şələküləsini yığışdırıb qızla bərabər şəhərə gəlir və qardaşına deyir:
- Mən gördüyümü görmüşəm, qardaş! Qızı həmin
oğlana verməliyik. Yoxsa allah ikimizə də qəzəb elər.

QAZI ATLI, ƏZRAİL PİYADA
Bir gün şəhərin qazısı öz evinin qabağında nə isə
axtarırdı. Küçə ilə keçən bir atlı qazıya salam verib soruşdu:
- Qazı sağ olsun, nə axtarırsan?
Qazı dedi:
- Əlimdən bir manat pulum yerə düşüb, onu axtarıram.
Atlı cibindən bir manat pul çıxarıb qazıya verdi və dedi:
- Qazı ağa, daha axtarma, keç evinə.
Atlı gedəndən sonra qazı öz-özünə dedi: «Nə yaxşı
oldu! Hər yoldan keçəndən bir manat alsam, Məkkə işim düzələr». Bu qayda ilə qazı hər yol keçəndən bir manat alırdı.
Artıq qazının kefi kök idi. Amma ayaq üstə dayanmaqdan yorulmuşdu, gedib evdən bir kətil götürdü, qapı ağzında qoyub əyləşdi.
Qazı bu asan qazanca dadandı. Gündə otuz-qırx manatı vardı. Yavaş-yavaş camaat qazının kələyini
başa düşdü. Daha qazı yaşayan küçədən heç kim keçmədi.
Qazı o biri küçələrə dadandı. Axırda xalq zinhara gəlib allahın yanına şikayətə getdi. Allah onların şikayətini eşidib Əzrailə hökm elədi ki, gedib qazının canını alsın. Əzrail siyahısını açıb gördü ki, hələ qazının ömrünə qalıb. Ərz elədi:
- Xudaya-xudavənda! Qazı bizim adamdır, bizim
hesabımızca hələ on səkkiz il yaşamalıdır. İndi onun canını alsaq, səndə hörmətdən düşərsən, mən də!
Allah fikirləşib dedi:
- İndi ki, iş belədir, get ona bir qulaq burması ver,
qorxut ki, daha camaatı soymasın.
Əzrail insan şəklində yerə enib qazının qabağından
keçdi və salam verdi. Qazı tez əlini uzadıb ona dedi:
- Bir manat ver!
Əzrail əbasının altından qanadını qazıya göstərdi:
- Mən insan deyiləm, Əzrailəm! Xəlayiq səndən

şikayətçidir. Məni allah göndərib ki, canını alım. Amma mən girdim qanının arasına, səni ölümdən qurtardım. İndi də gəlmişəm səni xəbərdar edim ki, daha camaatdan pul yığmayasan, yığdıqların bəsdir.
Qazı dedi:
- Ya Əzrail! Axı öyrənmişəm belə asanlıqla pul qazanmağa, ondan əl götürsəm, evim yıxılar ki!
Əzrail dedi:
- Ay axmaq qazı, həkimliyə keç. Həkimlər ki, pis qazanmır. Elə sabahdan e'lan elə ki, sən həkimsən, səni hansı xəstənin üstünə apardılar, qorxma, get. Mən də orda olacağam. Ancaq nə vaxt gördün ki, xəstənin başı üstəyəm, deməli o, bu gün-sabah öləcəkdir. Balaca dərman yaz ver, çıxanda da adamlarına de ki, artıq xərc-xirac eləməsinlər, xəstə iki-üç günlükdür, öləcəkdir. Elə ki gördün, naxoşun ayaq tərəfindəyəm, deməli, sağalacaq. Xəstənin adamlarını sevindir, onlara ürək-dirək ver. Bu qayda ilə məşhur həkim olarsan, pulun da artar. İndi mən getdim, xudahafiz.
Qazı Əzrailin dediyi kimi etdi, düz on səkkiz il məşhur həkim oldu.
Bir gün qazı gördü ki, qapı açıldı, Əzrail girdi içəri.
Qazı soruşdu:
- Niyə gəlmisən?
Əzrail dedi:
- Elə şey yoxdur. Başın tərəfə keçəcəyəm!
Qazı gördü ki, iş xarabdır, dedi:
- İndi ki, belədir, qoy sən deyən olsun. Ancaq möhlət ver, dörd rük'ət namaz qılım, sonra canımı al!
Əzrail razı oldu. Qazı dedi:
- And iç ki, dörd rük'ət namaz qılıb qurtarmamış mənim canımı almayacaqsan.
Əzrail allaha and içdi. Qazı durub dəstəmaz aldı, canamazı salıb iki rük'ət namaz qıldı, sonra canamazı yığdı.
Əzrail dedi:
- Elə niyə? İki rük'ət də qıl!
Qazı dedi:
- Hələ vaxtım yoxdur, vaxtım olanda qılaram. Xoş getdin!
O vaxtdan bəri qazı heç meyit namazı da qılmır ki, birdən Əzrail görüb sinəsinə qonar. Odur ki, deyirlər:
- Qazı atlı olub, Əzrail piyada...

## MOLLA KİTABDAN KİTABA SALAR

Bir kişinin inəyi itmişdi, axtara-axtara deyirdi:
- İlahi, elə et ki, inəyim nə mollaya, nə də seyidə rast gəlməsin.
Bunu eşidən bir nəfər soruşdu:
- Qardaş, bu nə sözdür deyirsən?! Necə yə'ni mollaya rast gəlməsin?
İnəyi itən kişi belə cavab verdi:

- İnək kimə rast gəlsə, həmin adam allahdan qorxacaq, soraqlaşıb özümə qaytaracaq. Amma molla tayfası onu kitabdan kitaba salıb halal eləyəcək və qaytarmayıb yeyəcək. Seyid olsa, lap pis. Deyəcək: «cəddi göndərib!»

ABBASINI ÖZÜN AL

Birisi keçəlin boynuna bir sillə vurmuşdu. Keçəl qazının yanına şikayətə getdi. Sillə vuran adamı tapıb gətirdilər. Qazı kitabını açıb bir qədər vərəqləyəndən sonra keçələ dedi:

- Boynunun ardında sillənin yeri qalmadığı üçün ondan bir abbası ala bilərsən.

Bu söz keçəlin xoşuna gəlmədi. Dikəldi və qazının boynuna bir sillə vurub dedi:

- Mən tələsirəm, abbasını ondan özün al!

GÖRÜNMƏYƏN İŞ

Bir kişi pis qonşusunun əlindən cana doymuşdu. Getdi qazının yanına, başına gələnləri danışandan sonra köməklik istəyib dedi:

- Deyirlər ki, qonşun pisdir, köç qurtar, amma mən köçə bilmirəm. Bu sinnimdə köç-külfəti, oğul-uşağı haraya aparım?!

Qazı bir kitab açdı, baxandan sonra dedi:

- Kitabda səbir göstərilir. Qonşunun da ömrünə az qalıb, səbir eylə.

Şikayətçi soruşdu:

- Axı nə qədər qalıb?!

Qazı dedi:

- Qırx il.

Kişi mə'yus halda evinə qayıdıb əhvalatı arvadına danışır və başına döyüb ağlamağa başlayır: «Mən bu zillətə qırx il necə dözəcəyəm?!»

Arvad deyir:

- Kişi, səbir elə, allah kərimdir!

Gəlin də gəlib qayınatasına təsəlli verir. Kişinin qızı da, oğlu da təsəlli verib deyirlər:

- Ata, allah kərimdir, səbir eylə!

Gecəni kişi birtəhər yatır. Səhər xəbər çıxır ki, pis qonşu ölüb.

Kişi ayağa qalxıb qazının yanına gedir və deyir:

- Hərçənd mən xətadan qurtardım, amma axı sən alimsən... Alimlər də yalan danışar? Sən buyurmuşdun ki, qonşun hələ qırx il yaşayacaq, amma səhər durub gördüm ki, qonşum ölüb. Bu necə işdir?

Qazı deyir:

- Düzünü bilmək istəsən, bu işə mən də məəttəl qalmışam. Pis adam bu tezliklə ölsün, görünməmiş işdir...

FƏRMANLI PİŞİK

Bir kişinin bir oğru pişiyi var idi ki, sahibini lap boğaza yığmışdı. Bir gün kişi pişiyi tutub, əl-ayağını saqqızla taxta parçasına yapışdırır və onu çaya buraxır. Demə ki, bu çayın bir qolu xəlifə Harunər-Rəşidin həyətindən keçirmiş. Harun çayda çimərkən pişiyi görüb təəccüb elədi, əmr verdi, pişiyi tutub gətirdilər. Pişiyin ayaqlarının saqqızla taxtaya yapışdırılması Harunu daha da heyrətləndirdi. Əmr

elədi, pişiyin əl-ayağını taxtadan ayırıb təmizlədilər. Sonra xəlifə:
«Pişik Harunun azadkərdəsidir, hər kəs ona əziyyət versə, böyük tikəsi qulağı boyda ediləcəkdir!» Fərmanını yazdırıb pişiyin boynundan asdırdı. Pişiyi buraxdılar.
Pişik gəzə-gəzə gəlib keçmiş sahibin evini tapdı. Kişi gördü ki, pişiyin boynuna nə isə bağlanıb, açıb oxudu.
Xəlifənin fərmanından xəbərdar olcaq arvadına dedi:
- Yığış, arvad, buradan köçək. Biz pişiklə fərmansız bacara bilmirdik, indi fərmanla ona neyləyə bilərik?!
Kişi avadanlığını bir arabaya yığıb bir baş xəlifənin hüzuruna sürür və ərz edir:
- Evi verdim pişiyə, indi göstər haraya köçüm!

FƏRQ QOYMUR

Bir kişini varı-yoxu bir inəyi, bir də eşşəyi vardı. Çöldən ot-ələf yığıb eşşək ilə daşıyır, inəyə yedirdir, südünü satıb külfətini dolandırırdı.
Son günlər eşşək kişini incitməyə başlamışdı. Tez-tez soncuq atır, anqırır, noxtasını qırıb qaçır, ya da öz axurunun ot-ələfini yeyib qurtaran kimi soxulurdu inəyin axuruna. Kişi eşşəyin əlindən lap təngə gəlmişdi. Bir axşam namazını qılandan sonra üzünü tutdu göyə:
- Pərvərdigara, özün görürsən ki, bu eşşək məni cana gətirib. Razıyam ki, ot-ələfi özüm dalımda daşıyam, təki bu eşşəyi mənim yaxamdan et, Əzraili göndər onun canını alsın.
Kişi səhər yuxudan ayılıb gördü ki, inəyi ölüb. Hirslə çıxdı çölə, üzünü göyə tutub dedi:
- Pərvərdigara! Sən necə allahsan ki, eşşək ilə inəyə fərq qoymursan?! Mən xahiş elədim ki, eşşəyi öldür, sən isə inəyi öldürdün. Daha sənə ibadət etməyəcəyəm!

MOLLANI QOV, ÖKUZƏ DƏYMƏ

Bir kişinin bağına bir molla, bir də bir öküz girir. Oğlu qaçıb atasına xəbər verir. Atası tez deyir:
- Oğul, qaç, mollanı qov, öküzə dəymə!
Oğlu təəccüblənib səbəbini soruşanda atası deyir:
- Öküz ağaclardan yarpaqları yeyib doyandan sonra çıxıb gedəcək, amma molla bağda olan meyvələrdən yeyib doyandan sonra ciblərini və kisəsini də doldurub aparacaq.

KƏNDLİ VƏ MOLLA

Bir kəndli yüyürə-yüyürə kənd mollasının yanına gəlib deyir:
- Molla əmi, naxır çöldən qayıdıb, amma mənim eşşəyim qayıtmayıb. Qorxuram heyvanı çöldə canavar yesin.
Bir dua oxu, üfür çölə, allah eşşəyimi bəladan saxlasın.
Molla əllərini qaziyülhacata qaldırıb dodaqlarını tərpətdi, sonra üzünü kəndliyə tutub dedi:
- Qorxma, bir dua oxumuşam ki, daşdan keçər. Daha eşşəyinə qurd toxunmaz. Get, evində rahat yat, sabah gedib eşşəyini taparsan.

Bunu eşidən «ağzıgöyçək» kəndlilərdən birisi üzünü camaata tutub dedi:
- İndi ki, mollanın duası ilə eşşək salamat qalacaq, niyə çodar Hacı İbrahim sürünü qorumaqçun neçə-neçə it saxlayır? Yaxşısı budur ki, itləri buraxsın, mollanı aparıb qoysun sürünün yanında. Molla da dua oxuyub sürünü salamat saxlasın!

## ALLAHIN SABAHI ÇOX

Bir molla kəndliyə üç manat borclu idi.
Kəndli nə qədər çalışırdı, borcunu ala bilmirdi. O, hər gün gəlib pulunu istəyəndə, molla deyirdi:
- Bu gün pulum yoxdur, allah qoysa, sabah gəlib pulunu apararsan.
Kəndli də inanıb gedirdi.
Bir gün yenə gəlib mollanı yerində görmədi. Molladan dərs alan bir şagird tələbkara dedi:
- Ay kişi, sən hər gün gəlirsən, pulunu istəyirsən, o da sənə hər gün eyni sözü deyir:
«Sabah!» Yaxşısı budur ki, get, bir də pul üçün buralara gəlmə. Nə vaxt eşitdin ki, yekə daş göyərib, onda gəlib pulunu istərsən.
Kəndli gedir. Bir azdan sonra molla gəlib şagirddən soruşur:
- Məni soruşan olmayıb ki?
Şagird deyir:
- Molla əmi, borcunu istəyən kəndli gəlmişdi, mən ona bir söz dedim, getdi, daha bir də gəlib səndən pul istəməyəcək.
Molla maraqlandı:
- Bala, sən ona nə demisən ki?
- Dedim ki, nə vaxt qapımızın qabağındakı bu yekə daş göyərdi, onda gəlib pulunu apararsan. Nə bu daş göyərəcək, nə də sən ona pul verənə oxşayırsan.
Molla həm sevindi, həm də qorxdu:
- Ay evini pir yıxsın, birdən allahın qüdrətilə bu daş göyərdi, onda necə olsun?! Kəndlinin borcunu qaytarmalıyam?! Amma allahın sabahı çox, qurtarmazdır, - deyə, çubuğu qapdı, şagirdinin ayaqlarını fələqqəyə salıb o ki var, çubuqladı.

## ÇOBAN VƏ MOLLA

Bir çoban öz sürüsünün yanında əyləşib süd doğramacı yeyirdi. Təsadüfən oradan keçən mollanı görüb dedi:
- Molla, buyur, doğramac ye.
Molla tez əyləşib doğramacdan yeməyə başladı. Bu əsnada çoban dedi:
- Molla, dəli şeytan deyir ki, bu qoyunların ikisini tutub ver mollaya, aparsın özü üçün.
Molla minnətdarlıqla başını əydi:
- Əlbəttə, hərdənbir dəli şeytanın sözünə baxarlar. Özü də pis olmaz ki, biri o buynuzlu

qoç olsun.
Doğramacı yeyib qurtardılar. Bir qədər söhbətdən sonar çoban üzünü mollaya tutub dedi:
- Dəli şeytan indi də ayrı söz deyir axı!
- Nə deyir o qadasın aldığım dəli şeytan?
- Deyir ki, bu çomaqla mollaya bir-iki dənə çək.
Molla hövlnak yerindən qalxdı:
- A kişi, əstəğfürullah elə. Heç sən yaşda kişi də dəli şeytanın sözünə baxar?!

## TƏBİL

Peyğəmbər me'raca gedəndə görür ki, bir mələikə əlində toppuz, qoltuğunda təbil dayanıb. Yaxınlaşıb soruşur:
- Sənin vəzifən nədir, qardaş?
Mələikə deyir:
- Yer üzündə olan mollaları güdürəm ki, görüm hansı ehsan verir və ya fəqirə əl tutur, dərhal təbil vurmalıyam.
Peyğəmbər soruşur:
- Hə, neçə dəfə vurmusan?
Mələikə deyir:
- Əlim qurusun, əgər birini vurmuşam!

## YARISI SUYUNDUR

Bir kişi inəkçilikdən xeyli pul qazanmışdı. Hacı olmaq üçün Məkkəyə gedirdi. Dənizin ortasında kişi gəminin göyərtəsində soyunub paltarını dəyişdirirdi.
Sən demə, gəmidə bir meymunoynadan da varmış. Onun meymunu gəzə-gəzə gəlib südçünün yanından keçəndə onun həmyanını (pul kisəsi bərkidilən kəmərini) götürüb gəminin doruna dırmaşır.
Meymun dorun başında dayanıb dişi-dırnağı ilə həmyanı yırtıb qızılları çıxarır və birini gəmiyə, birini dənizə atmağa başlayır. Gəmidə olanlar istəyirlər ki, dora dırmaşıb həmyanı meymundan alsınlar. Südçü mane olub deyir:
- Dəyməyin, meymun lap yaxşı bölür. Pulun yarısı mənim, yarısı da suyundur, çünki ömrüm boyu südə su qatıb satmışam, ona görə də öz cəzamdır, çəkirəm.

## ƏNGƏL BARDAQDADIR

Bir kasıb kişi kəbin kəsdirmək üçün qazının yanına gedir və özü ilə bir kasa yağ aparır. Qazı yağa baxıb deyir:
- A kişi, heç bir kasa yağa da kəbin kəsərlər?! Mən kəbini bir bardaq yağa kəsirəm.
Biçarə kişi bir bardaq yağı haradan düzəldəcəyini fikirləşə-fikirləşə evinə qayıtdı. Evlənmək istədiyi arvad ona dedi:
- A kişi, ürəyini sıxma. Bir bardaq tap, boğazınacan qum ilə doldur, kasadakı yağı da qumun üstünə töküb ağzını bağla, apar ver qazıya, de ki, borc-xərclə düzəldib gətirdim.
Kişi arvad deyən kimi eləyib, bardağı qazıya apardı.

Qazı dedi:
- Hə, bu başqa məsələ, indi işin düzəldi.
Və tez kəbini kəsib kağızını kişiyə verdi.
Qazı bardağı evə gətirib arvadına dedi ki, yağı əritsin.
Arvad bardağı qazana boşaldanda yağın altındakı qum töküldü. Qazı aldadıldığını başa düşdü və kişiyə xəbər göndərdi ki, kəbin kağızını gətirsin, onda bir balaca əngəl var, düzəltsin. Kişi qazının adamına dedi:
- Get qazıya de ki, əngəl kəbin kağızında yox, bardaqdadır. Gələn dəfə özüm düzəldərəm.

DİL BƏLASI
Dərviş görür ki, bir kişi tirmə toxuyur və toxuduqca özözünə deyir: «Ya rəbb, məni dilimin bəlasından saxla!» Dərviş toxucunun sözündən heyrətlənib bir neçə gün onu güdür. Toxucu tirməni toxuyub qurtarır, bir məcməyiyə qoyub padşah üçün aparanda dərviş də onun ardınca gedir.
Şah qapısına çatanda dərviş özünü ustaya çatdırıb deyir:
- Qardaş, mən də padşahı görməliyəm. Səni and verirəm allaha, məni özünün şagirdin kimi qələmə ver, qoy mən də keçim içəri; məcməyini də ver, aparım.
Usta tirməni dərvişə verir, bərabər saraya keçirlər.
Padşah tirməni bəyənib, ev vəzir-vəkilinə müraciətlə soruşur:
- Bu tirmədən özümə nə tikdirsəm yaxşı olar?
Kimi deyir don, kimi deyir qurşaq, kimisi – ləbbadə, döşlük və s.Baş vəzir deyir:
- Qoy görək usta özü nə fikirdədir!
Tirmə toxuyan deyir:
- Qibleyi-aləm, sən bu tirməni saxla, qalsın, öləndə tabutunun üstünə çəkərlər.
Padşah qəzəblənib əmr edir ki, ustanın boynunu vursunlar. cəlladdan qabaq dərviş özünü irəli verib baş əyir və deyir:
- Qibleyi-aləm, mən bu kişinin şagirdi deyiləm, yalandan adımı şagird qoymuşam. Bir gün onun qapısından keçirdim, gördüm ki, bu kişi tirmə toxuya-toxuya öz-özünə deyir: «Ya rəbb, məni dilimin bəlasından saxla!» Maraqlanıb onu güddüm ki, görüm onun dilinin bəlası nə olacaq. Bu da aqibəti. Ancaq bil ki, ey padşah o, bu sözü qəsd-qərəzlə demədi, bu onun dilinin bəlasıdır.
Padşah dərvişin sözündən sakitləşib, toxucunu cəzadan azad etdi.

MAL-QARA PEYĞƏMBƏRİ
Bir kişi peyğəmbərlik iddiası ilə şəhərin kənarında özünə bir bina salmışdı: çoxlu qulamı, nökər-naibi var idi.
Bu xəbər padşaha çatdı. Adam göndərdi ki, peyğəmbər gəlsin, görək nə deyir.
Peyğəmbərlik iddiası edən kişi qasidə dedi:
- Mən peyğəmbərəm, padşah məni görmək istəyirsə, zəhmət çəkib özü gəlsin hüzuruma.
Bir gün sonra şəhərdə xəbər yayıldı ki, padşah sabah

peyğəmbərin yanına gedəcək.
Kişi tez adamlarını yığıb dedi:
- Padşah görüşümə gəlir, yüzünüz sağımda, yüzünüz
də solumda dayanarsınız. Elə ki, mən əlimi sağ bığıma çəkdim möyüldərsiniz, elə ki, əlimi sol bığıma çəkdim anqırarsınız, sonra da sakitcə dayanarsınız.
Sabahı padşah gəlir. Yaxınlaşanda kişi əlini sağ bığına çəkir, hamı birdən inək kimi möyüldəyir, sonra
sol bığına çəkir, hamı eşşək kimi anqırır. Peyğəmbərlik edən kişi irəli gəlib padşaha deyir:
- Ey qibleyi-aləm! Mən mal-qara peyğəmbəriyəm,
özünü yoxlamaq istəyirsənsə, keç, sən də onların yanında dur!
Padşah tez ona nəzir verib geri qayıdır və rəiyyətinə
deyir:
- And olsun mənim bu taxt-tacıma, indiyədək belə
ağıllı, tədbirli peyğəmbər dünyaya gəlməyib. Ona
inanmayana lənət!

## OĞRU

Bir kişi şəhərə gəlib günorta namazını qılmaq üçün
məscidə gedir. Görür ki, məscidin hücrələrində şərab satılır.
Soruşur:
- Bu necə olan işdir?!
Deyirlər:
- Biz məscidin mənfəətini mülahizə etmişik. Əgər başqa şey gətirən tacirə kirayəyə versəydik, məscidin mədaxili az olardı, şərabçıya verdik ki, kirayəmiz çoxalsın.
Kişi heyrət içərisində məscidə girib görür ki, axund
kürkü tərsinə geyib, bir ayağını da yuxarı tutub namaz qılır.
Soruşur:
- O elə niyə eləyir?
Deyirlər:
- Axundumuzun əynindəki kürk oğurluq olduğu üçün
tərsinə geyib ki, yiyəsi tanımasın. Küçə ilə gələndə də bir ayağı nəcisə batdığı üçün yuxarıda tutub ki, məscid murder olmasın.
Kişi deyir:
- İndi ki, elədir, onu qabağa niyə keçirmisiniz? Qoy
qapı ağzında otursun!
Deyirlər:
- Arxada qoysaq, qorxuruq ki, başmaqlarımızı
oğurlayar!

## MƏNİ YANDIRMAZ

Molla bir kişinin evinə qonaq gedir. Ev sahibi süfrəyə
bal ilə yağ qoyur. Molla girişir yeməyə. Ev sahibi görür ki, acgöz molla belə ki başlayıb, süfrədə bir şey qalmayacaq.
Deyir:
- Ay molla, çörəyi bala az-az batır, ciyərini yandırar!

Molla deyir:
- Qorxma, elə ki səni yandırır, məni yandırmaz.

DANA BATIRIB BALTANIN SAPINA.
İki şəxs mübahisələrini həll etmək üçün qazının yanına gedir. Bunların biri dəmirçi imiş. Bir gün əvvəl bir yaxşı balta qayırıb qazı üçün aparır və deyir:
Sabah sənin yanına gələcəyik, cəhd elə, mən haqlı olum.
Qazı onu xatircəm edib yola salır.
O biri şikayətçi isə kök bir dana gətirir və əhvalatı qazıya danışır. Qazı onu da arxayın edib yola salır.
Ertəsi gün mühakimə vaxtı hər iki tərəf öz sözünü deyib qazının hökmünü gözləyir. Qazı dərin fikrə gedir. O öz sözünü deməmiş, birinci iddiaçı baltanı qazının yadına salmaq məqsədilə deyir:
Ay qazı, nə çox fikir eyləyirsən? Bu işdə nə var ki, baltala getsin də!
Qazı başını yırğalaya-yırğalaya deyir:
Elə məsələ də burasındadır ki, baltalaya bilmirəm, çünki dana baltanın sapını murdarlayıb.

QOY ÇIĞIRSIN.
Bir çoban yaylaqdan qışlağa sürü aparırdı. Yolu şəhər içindən düşmüşdü. Günorta vaxtı idi. Molla minarədən azan verirdi. Çoban yanından ötən bir kişidən xəbər aldı ki, o niyə çığırır? Kişi deyir:
O, məscidin azançısıdır, camaatı məscidə, namaz qılmağa çağırır.
Çoban soruşdu:
Bunun sürüyə bir ziyanı yoxdur ki?
Yox!
İndi ki, sürüyə ziyanı yoxdur, qoy nə qədər çığırır çığırsın, - deyə çoban sürünü haylayıb, yoluna davam edir.

MOLLADAN QAÇ.
Baharda bir dəstə qız şəhərdən kənara, çəmənə seyrə çıxmışdı. Bir də görürlər ki, qırx lotu onlara tərəf gəlir.
Qızların başçısı deyir:
- Qızlar, gərək bir hiylə işlədək ki, onlar bizə sataşmasınlar.
Hamı soruşur:
- Neyləyək?
Başçı deyir:
- Onlar bizə çatan kimi hərəmiz gedib bir lotunun yanında dayanaq və deyək: «Sən mənim qardaşımsan». Onda bizə toxunmazlar.
Lotular gəlib qızlara çatcaq, hər qız bir lotunun yanına qaçıb deyir:
- Sən mənim qardaşımsan.

Lotuların başçısı yoldaşlarına deyir:
- Bu qızlar ki, bizi belə qarşıladılar, onlara bacı gözü ilə
baxmalıyıq.
Lotular bir-iki saat qızlarla yeyib-içəndən, deyibgüləndən sonra vidalaşıb gedirlər.
Qızlar geri qayıdanda yolda bir neçə mollaya rast
gəlirlər. Qızlar lotulara dediklərini mollalara da deyirlər.
Mollalar bir-birinə baxıb gülürlər. Baş molla deyir:
- İndi ki, bu qız məni özünə qardaş hesab edir, mən də öz bacımı kim istəsə, ona siğə edə bilərəm. Bu şərtlə ki, o da öz bacısının siğəsini mənə oxusun.
Bu sözü eşidən qızlar əllərinə keçən daşı, kəsəyi
mollaların təpəsinə çırpırlar. Mollalar güclə qaçıb qurtarırlar.
Odur ki, deyiblər: «Molladan qaç, lotuya bir maç!»

## NAXOŞ MƏN DEYİLƏM.

Bir qarının gözünün ağı-qarası bir nəvəsi vardı. Uşaq
bərk naxoşlamışdı, gün-gündən geri gedirdi. Bir gün uşağın halı lap xarablaşdı. Qarı durub uşağın başına dolandı və üzünü göyə tutub dedi:
- Pərvərdigara! Mənim bu əziz nəvəmə rəhm elə, onu
sağalt, onun yerinə mənim canımı al. Mən dünyanın yaxşıyamanını görmüşəm.
Həyətdə qarının bir danası var imiş. Qarı allaha
yalvaranda dana da başını govduşa (su qabına) soxub su içirmiş. Govduş keçir dananın başına. Heyvan başını o yana, bu yana tərpədə-tərpədə evin qapısından içəri keçir. Qarı başını qaldırıb əcaib-qərayib bir şey görür. Elə bilir ki, allah onun duasını qəbul edib, Əzraili göndərib ki, onun canını alsın. Qarı qorxusundan bir küncə sıxılıb əsə-əsə deyir:
- Ya Əzrail! Vallah, billah, naxoş mən deyiləm, bax, bu
uşaqdır.

## MƏScİDƏ GİRİRƏMMİ

Bir kişi itini döyürdü. Qonşusu bunu görüb soruşdu:
- İti niyə döyürsən? Yazıqdır!
İt sahibi cavab verdi:
- Mən iti ona görə döyürəm ki, qaçıb girib məscidə!
Qonşusu dedi:
- Vurma, heyvandır, qanmayıb, qanacağı olsaydı
məscidə girməzdi. Gör mən heç məscidə girirəmmi?

## DOYAN O RƏHMƏTLİK KİMİ OLAR.

İki acgöz molla ehsana getmişdi. Oradan çıxandan
sonra ikinci ehsana getdilər. İkinci ehsanda da o qədər yedilər ki, birinin bağrı çatlayıb öldü, o birinin isə gözləri halaybulay görməyə başladı. Qarnının ağırlığından yeriyə bilməyən mollanı arxası üstə arabanın içinə yıxıb evinə yola saldılar. Yolda mollanın gözü göydəki ulduzlara düşüb soruşdu:
- Arabaçı, o işıq gələn yerdə nə var?
Arabaçı mollanın acgözlüyünü bildiyindən, istehza ilə
dedi:

- Ölü yeridir, ehsan verirlər.
Bu sözləri eşidən molla sevindiyindən əllərini bir-birinə sürtüb, arabaçıya dedi:
- Tez ol, arabanı oraya sür!
Arabaçı gülə-gülə molladan soruşdu:
- Molla əmi, məgər doymamısan?
Molla dedi:
- Yox, qardaş, doyan o rəhmətlik kimi olar!

## TUT ƏLİMİ

Bir molla çaya düşüb batırdı. Kənarda olanlar mollaya deyirdilər: «Molla, ver əlini, tutub səni çıxardaq!» Molla isə əlini uzatmayıb suda çabalayırdı. Dünyagörmüş bir kişi onlara dedi:
- camaat, molla tayfasının verməklə arası yoxdur, onlar almağa öyrəniblər. Deyin ki, tut əlimi, o da əlini uzadıb qamarlasın!
Odur ki demişlər:
- Al, molla! – Ey. Vallah!
- Ver, molla! – Əstəğfürullah!

## QAZ – YAĞI HAMISINDAN AZ

İki ovçu dörd quş vurmuşdu: qaşqaldaq, ördək, qaz və qu. Bölgü üstə onların mübahisəsi düşdü. Qazının yanına gəldilər ki, onların mübahisəsini həll etsin. Qazı ovçuları dinləyib dedi:
Ördək – yağı bördək-bördək, o sənin,
Qaşqaldaq – yağı bardaq-bardaq, o də sənin,
O ki, qaldı qaz – yağı hamısından az...
Qunu da onun yanına yaz – bunlar da mənim!

## GÜNAH VƏ SAVAB

Bir molla günah və savabdan danışaraq deyirdi:
- Hər kəs bir savab iş tutsa, mələikələr onun üçün qiyamət gününə on savab yazar. Hər kəs ki, bir günah etsə, mələikələr bir günah yazar.
Bir şəxs bunu eşidib qonşudan on toyuq oğurladı, gətirib birini mollaya verdi və dedi:
- bu toyuğu ehsan olaraq sənə gətirmişəm. Yəqin ki, allah mənə bir on savab yazdıracaq.
Molla toyuğu alıb dedi:
- Əlbəttə, bu ehsanına görə qiyamət günü birə on savab qazanacaqsan!
Həmin şəxs o gündən e'tibarən oğurluğa başladı və hər gətirdiyindən bir-ikisini mollanın evinə daşıdı. Axırda iş o yerə çatdı ki, oğru mollanın evinə dadandı. Yenə də apardıqlarından bir-ikisini mollaya verirdi, molla da hörmətdən düşməmək üçün bu «ehsanları» qəbul edirdi:
- Allah əvəzini versin!

## BİR ÖHÖ-ÖHÖ DƏ İSTƏYİR

Bir kişinin adı Ağa idi, amma özü çox tənbəl idi,
işləməklə arası yox idi. Deyəndə ki, niyə işləmirsən, cavab verərmiş ki, adı Ağadır, ağa da heç işləyər? Bu adla da orada-burada qarnını doydurardı. Nəhayət, onun tənbəlliyi hamıya mə'lum oldu. Daha heç kəs, hətta qohum-qardaş da ona yemək vermirdi. Bir gün yeməyə heç nə tapa bilmədiyindən, öz-özünə dedi: «Mollalar deyir ki, allah ruzi verəndir, mən də gedəcəyəm allahın evinə, ibadətlə məşğul olacağam. Yəqin ki, allah da mənim ruzimi verər.»
Gəldi məscidə, bir küncdə sütunun dalında axşama kimi oturub ibadətə məşğul oldu. Acından ürəyi gedirdi, amma allah yemək gətirmirdi ki, gətirmirdi. Gələnlərin çoxu namazını qılıb gedirdi evinə, Ağanı heç dindirən də olmurdu...
Axşam oldu, şamlar yandı. Tənbəl Ağa gördü ki, bir
neçə arvad gəldi, məscidin aşağı tərəfində oturub süfrə açdı.
Onlar çörəyə halva yaxıb məsciddə olanlara payladılar. Ağa küncdəki sütunun dalında oturduğu üçün onu görmədilər.
Arvadlardan birisi külçə paylayana dedi:
- Yaxşı bax ha! Qalan olmasın...
Ağa gördü ki, arvadlar yığışıb gedir, bərkdən öskürdü.
Onun öskürəyini eşidən arvadlardan biri dedi:
- Ay qız, deyəsən orada da bir kişi var, ona da halvaçörək ver.
Ağa halva-çörəyi alıb yeyəndən sonra öz-özünə dedi:
- Bir dişləm çörəyə bir öhə-öhə də lazım imiş, yoxsa
adam acından ölər.

MƏNİ MƏScİDƏ SALMA
Bir kişi təqsiri olan oğlunu tutub döymək istəyirdi.
Uşaq canını qurtarmaq məqsədilə qaçıb məscidə girdi. Atası məscidin qapısında dayanıb qışqırdı:
- Adə, köpəkoğlu, gəl çıx bayıra, ağsaqqal vaxtımda
məni məscidə salma!

BAŞIN ÇOMAQ GÖRMƏYİB
İki molla bir kənddən o biri kəndə piyada gedirdi.
Mollanın biri dalda qalmış, o biri isə dağın başına çatmışdı.
İrəlidəki gördü ki, bir çoban oturub, qabağında it ölüsü, ağlayır. Çoban mollanı görən kimi ağlaya-ağlaya dedi:
- Ay molla, yaxşı oldu ki, sən gəldin, gəl, bu itimin
namazını qıl, özünə də dua et ki, behiştə getsin! Rəhmətlik çox vəfalı idi.
Molla çımxırdı:
- Ağıllı danış ədə! İt ölüsünə namaz qılmazlar, tulla
getsin bir yana!
Çoban itinin haqqında bu ehtiramsızlığı görəndə
əlindəki çomaqla mollanın başına, belinə bir neçə kötək ilişdirdi. Molla qışqıra-qışqıra dedi:
- Daha vurma, namaz qılaram.
«Ağac acı, can şirin» deyiblər. Molla qorxudan itin
ölüsünü üzü qibləyə uzadıb namaz qılmağa başladı. Bu vaxt arxada qalan molla gəlib

çıxdı. Yoldaşını itə namaz qılan görüb güldü:
- Ay kişi, başına at təpib nədir, itə də namaz qılarlar?
- Bəli, qılarlar! Sənin də başına çomaq dəysəydi,
qılardın.

GEN QAZIYIB
Qoca əfəndi ilə cavan bir axund yol üstündəki arxı
keçməli olurlar. Axund deyir.
- Əfəndi, gəl belə edək: mən Əlini çağırım, sən də
Öməri, hoppanaq arxın üstündən, görək kimin ağası ona kömək edəcək.
Axund bir qədər dala çəkilib «Ya Əli!» deyib arxı
adlayır.
Əfəndi də «Ya Ömər!» deyib, arxı adlayanda düşüb
suya, islanıb dönür cücəyə. Lakin özünü sındırmayaraq deyir:
- Heç gülmə... təqsir Ömərdə deyil, arxı qazıyan gen
qazmışdır.

ALLAH QOYSA
Bir kişi təzə balıq almışdı, evə gətirib arvadına dedi:
- Balığı təmizlə, işdən gələnəcən bir yaxşı balıqplov
bişir, yeyək.
Arvad dedi:
- Bişirməyinə bişirərəm, ancaq de ki, allah qoysa.
Kişi dedi:
- Ay arvad, evdə düyü var, yağ var, balığı da alıb
gətirmişəm, daha buna «Allah qoysa» nə lazımdır? Mən getdim...
Kişi axşamçağı işdən qayıdanda gördü ki, ocaq üstə
plov dəmdədir. cəld əl-üzünü yuyub süfrəyə oturdu.
- Arvad, tez ol, acından ölürəm, plovu çək!
Arvad dedi:
- A kişi, bir «Allah qoysa» de də «Allah qoysa»
deməsən, aşı çəkməyəcəyəm!
Kişi hirsini güclə boğdu:
- Ölsən də «Allah qoysa» deməyəcəyəm! Özün bil,
istəyirsən çək aşı, istəmirsən çəkmə! Çəkməsən, özün də ac qalacaqsan!
Arvad ac olduğu üçün, durub mətbəxdən qazanı
gətirdi, aşı çəkib süfrəyə qoydu. Bu dəmdə qapı döyüldü, kişini çağırdılar. Kişi bayıra
çıxıb divan adamını gördü. Divan adamı kişini sorğu-sualsız tutub apardı.
Səhəri mə'lum oldu ki, bu kişi günahsızdır, başqasının
yerinə səhvən tutulub. Kişi ac-susuz evə gəldi. Arvadına dedi:
- Arvad, mən «Allah qoysa» demirəm, ancaq dünənki
aşı isti elə, yeyəcəyəm!

BEHİŞTİN YOLU
Bir axund minbərdən behiştin yollarından
danışaraq deyirdi:

- Həzərat, bilin ki, behiştin yolu cəhənnəmin yolu kimi deyil.
cəhənnəmin yolu lap yaxındır, əlini uzatsan çatar. O ki qaldı behiştin yoluna, onun uzunluğu üç min ildir. Ona siratəlmüstəqim deyirlər. Gərək qıl kimi bir körpünü min il başı yuxarı, min il də gözüyumulu keçib behiştə çatasan.
Məsciddə oturanlardan biri ayağa qalxıb dedi:
- Axund, bir yerə ki, bu cür əzab-əziyyətlə getməliyik, mənə elə behişt lazım deyil! Həvəsin var, özün get!

## AZ QOZ

Kar bir kişi bir dəfə məscidə gəlib lap aşağı başda, qapı ağzında oturur. Axund minbərdən danışarkən deyir:
- Az toz orucu batil eləməz.
Kar elə bilir ki, axund deyir: «Az qoz orucu batil eləməz». Sevinə-sevinə evə gəlib, arvadına deyir:
- Arvad, bu gün axund minbərdən dedi ki, az qoz orucu batil eləməz. Bir çuval qozun yanında, əlbəttə, bir cib qoz azdır. Gəl gündə bir cib qoz yeyək.
Bu qayda ilə ər-arvad hərəsi gündə ciblərini qozla doldurub yeməyə başlayırlar.
Orucluğun axırında, bayram günü kar kişi yenə məscidə gəlib axundla görüşür və deyir:
- Axund ağa, allah sənin atana rəhmət eləsin, nə yaxşı bizi başa saldın ki, az qoz orucu batil eləməz.
Biz də baxdıq gördük ki, bir çuvala görə bir cib qoz azdır. Odur ki, hər gün ağzı oruc bir qoz yemişik.
Axund hirslənib deyir:
- Kül sənin başına ki, tozla qozu ayıra bilməmisən. Və kül mənin başıma ki, gəlib sizin kimi axmaqlara axund olmuşam!

## BÖLGÜ

Bir məscidin iki mollası vardı, hər gün aralarında namaz qılmaq üstündə dava düşərdi. Axırda təngə gəlirlər, birbirinin üzünü görməmək üçün məscidin ortasından ip çəkib pərdə asırlar. Hər kəs öz camaatı ilə bir tərəfdə namaz qılır.
Bu əhvalatı eşidən dünyagörmüş bir qoca öz damında salat çəkdirib, evinə pəsməzar qoydurur; camaat dəstə-dəstə yığılıb başsağlığına gəlir.
Kimin öldüyünü soruşanda qoca deyir:
- Allah ölüb, ona görə yas saxlayıram.
Bu xəbəri eşidən mollalar qocanın yanına gəlib deyirlər:
- Allah da ölərmi, ay kişi, bu nə sözdür deyirsən? Əstəqfar elə!
Qoca deyir:
- Mən görmüşəm ki, ölənin malını bölərlər. Görünür, allah ölüb ki, siz də onun evini öz aranızda bölüşdürmüsünüz. Bundan sonra məscidə gedən olmayacaq!

## AĞLIN OLSAYDI

Bir kənd mollası dəyirmana buğda apardı. Xurcunun bir gözünə buğda, o biri gözünə isə daş doldurmuşdu. Yolda ona kasıb bir kişi rast gəlir. Salamlaşandan sonra molladan soruşur:
- Xurcunun bir gözünə daş niyə doldurmusan?
Molla deyir:
- Xurcun eşşəyin üstündən aşmamaq üçün.
Kişi doyunca gülüb deyir:
- Ay molla, xurcuna daş doldurmaq artıqdır. Bu saat sənin işini asanlaşdırım.
Kişi daşları yerə töküb, buğdanın yarısını xurcunun o biri gözünə boşaldır.
- Hə, gördün? İndi düş yola, həm xurcunun gözləri bərabərləşdi, həm də eşşəyin yükü yüngülləşdi.
Molla deyir:
- Qardaş, mənə sənin bu məsləhətin lazım deyil. Sən ağıllı olsaydın, kasıb olmazdın, pulun-dövlətin olardı.
Molla təzədən buğdanın hamısını xurcunun bir gözünə, daşları da o biri gözünə doldurub yoluna davam edir.

## GÖZÜMƏ BALIQ BAŞI GÖRÜNÜR.

Molla çox balıq yeyən idi. Süfrəsində nə xörək olursaolsun, yanında mütləq balıq olmalı idi. Arvadı isə balıqdan çirkinmişdi. Ərinə çox yalvarırdı ki, arabir balıqsız xörək də yesin, molla qulaq asmırdı. Axırda arvad kişisindən bixəbər bazardan bir yük təzə balıq alıb evə gətirdi, mətbəxdə qoyub üstünü örtdü ki, əri görməsin.
Arvad gecə mollanı yuxuya verib, balıqları həyətə, dama, yola və küçəyə səpələdi, evə qayıdıb yavaşca mollanı oyatdı və dedi:
- A kişi, həyətə çıxmışdım, ayağıma bir şey dəydi, gördüm balıqdır. İşıq yandırdım ki, görüm bu necə şeydir, hər yanda balıq gördüm. Əvvəlcə xəyal etdim ki, məhəllə uşaqları zarafatca atıblar. Axı sənin balıq yeməyin hamıya mə'lumdur. Çıxdım dama, baxdım küçəyə, yenə balıq gördüm. Deyirəm bəlkə bu gecə göydən yağış əvəzinə balıq yağıb... Nə qədər ki, qonşular xəbər tutmayıb, dur, yığaq.
Molla sevincək yerindən qalxıb geyindi, arvadı ilə bərabər həyətdən, damlardan və küçədən balıqları yığdılar.
Əl-ayaqlarını yuyub, şad-xürrəm yatdılar. Sabah olcaq molla arvada tapşırdı ki, axşam balıqplov bişirsin, balığa da qənaət eləməsin.
Axşam molla məsciddən gəldi. Arvad plovu çəkib mollanın qabağına qoydu. Ancaq süfrədə balıq yox idi. Molla arvadından soruşdu:
- Bəs bunun balığı hanı?
Arvad dedi:
- Məgər balıq almışdın ki, bişirəydim?
Molla dedi:
- Ay arvad, sən nə danışırsan? Bəs gecə yağan balıqlar nə oldu?
Arvad ərindən bu sualı eşidəndə başladı qışqırmağa:
«Vay, dad ərim dəli olub, başına hava gəlib!» Qohum-qonşu yığılıb bu işə məəttəl

qaldılar. Arvad gedib divana xəbər verdi. Təhqiqat üçün mollanı divana apardılar. Molla gecə gördüyünü divanda da söylədi. Hakim mollanı dəli hesab edib, dəlixanaya göndərdi...

Molla bir neçə gün dəlixanada qalandan sonra bir tanışı yanına gəldi. Buraya düşməyinin səbəbini soruşdu. Molla ona da başına gələn qəziyyəni danışdı. Tanışı mollaya dedi:

- Dostum, arvadın sənə kələk gəlmişdir. Göydən də balıq yağar? Bu dəfə hakimlər səndən bu barədə söz soruşanda de ki, balıq yağdı nədir? Zarafatım tutmuşdu, elə belə deyirdim. Balıq da yağarmı?

Molla öyrəndiyini hakimə deyir, onu buraxırlar.

Arvadı yenə molla üçün aş bişirmişdi. Bu dəfə balığı nimçənin içində, aşın altında gizlətmişdi. Molla bir-iki pəncə yemişdi ki, düyünün altından balığın başı göründü. Molla tez əlini çəkib ağzını sildi. Arvad dedi:

- Ay kişi, nə tez doydun?

Molla dedi:

- Arvad, doymağına doymamışam. Demirəm də ki, aşda balıq var. Amma gözümə balıq başı görünür.

## YUXU ƏHVALATI

Göbək duası yazmaqda ad qazanmış bir molla şəhərdə türkəçarə həkimliyi ilə də məşhur idi. O deyərdi ki, tüpürcəyi nəinki yaraları sağaldır, hətta divar çatlağını da bitişdirir. camaat da ona inanırdı.

Günlərin bir günü şəhərdə bərk xəzri əsməyə başladı. Tozanaq göz çıxarırdı. Mollanın yanına gəlib-gedən yox idi, bazarı çox kasad olmuşdu. Birdən qapı açıldı, qonşusu içəri girdi. Salam verib oturdu. Söhbət zamanı mə'lum oldu ki, mollanın qonşusu gəmidə işləyir. Bir dəfə gəmi ilə Həştərxana gedərkən gəmi orada bir neçə gün qalmalı imiş.

Bikarçılıqdan bazara çıxan muzduru yerlilər nə üstə isə döyüblərmiş. Aləm igidlikdən danışanda, bu da hər yetənə döyülməyindən danışardı.

Molla deyir:

- Bunlar mə'lum. İndi de görüm buraya nə üçün gəlmisən?

Qonşusu deyir:

- Molla əmi, gecə qəribə bir yuxu görmüşəm. İstəyirəm sənin üçün danışım, ancaq qorxuram kefinə dəyə, çünki yuxuda görmüşəm ki, xudanəkərdə, sən ölmüsən.

Molla deyir:

- Yox, xatirimə dəyməz, danış. Yuxu nə olan şeydir ki, keyfə də dəyə? Yuxunu tərsinə yozarlar, deməli ki, ömrüm uzun olacaq.

Qonşu yerini rahatlayıb danışmağa başlayır:

- Bəli, gördüm ki, sən ölmüsən, meyidini yuyublar, səni kəfənə tutub tabuta qoyublar. Bütün Qur'an oxuyanlar cəmləşib sizə, məxluq dəstə-dəstə gəlib sənə fatihə verir. Qərəz, gecəni səhərə qədər əliyaylıqlı keçirib, birtəhər səhəri açdıq. Minacat, salat səsi şəhəri bürümüşdü. Üçüncü salatdan sonra cənazəni evdən çıxarıb mafəyə qoyduq. Mafəni qaldırıb məscidə tərəf yollandıq. Demək olar ki, şəhər camaatının hamısı burada idi. Məsciddə meyit namazı qılındı... Füqaraya halva-külçə paylandı. Oradan nə'şi

qaldırıb, dəfn etmək üçün Bibiheybətə apardıq. cənazəni Hökumə xatunun başına dolandırdıq. Həzrət Bibinin həyətində sənin üçün qəbir qazımaq istərkən bir səs gəldi: «Həzərat, əl saxlayın! Bu büzürgüvarın yeri bura deyil. Onun qəbri gərək Xorasanda, qardaşım imam Rza türbəsinin yanında qazılsın. Aparın oraya.»
Söz bu yerə çatanda mollanın gözü yaşardı, ağzı açıla qalıb dedi:
- Qonşu, udqunma, danış, rəhmətlik atan da belə
yuxulardan danışardı.
- ...Əlqərəz, cənazəni calal ilə əl üstə qalxızıb dəniz
sahilinə endirdik. «Bismillah» deyib ayağımızı dənizə atdıq.
Göz yumub açan qədərdə Təzə şəhəri Aşqabadı keçib Məşhədə çatdıq. Orada bizə xeyli camaat qoşulub, cənazəni imam Rza rozəsinə aparıb dolandırdıq. Yenə də qəbir qazımaq istəyirdik ki, ağanın evindən bir nida gəldi: «Ey əhli Məşhəd! Əl saxlayın! Bu cənabı cəddim imam Hüseynin qəbrinin yanında bastırmalısınız. Aparın Kərbəlayimüəllaya
».
Təzədən sənin cənazəni qaldırıb. İran mülkünü keçib,
Kərbəla torpağına daxil olduq. Səni imam Hüseynin başına dolandırdıq. İmam da sənin şərafətini yüksək tutub, nə'şini Nəcəfül-Əşrəfdə, həzrət Əlinin qəbrinin yanında dəfn etməyi məsləhət gördü.
cənazəni gətirdik Nəcəfül-Əşrəfə. Deməki, Nəcəf əhli
qabaqcadan bilirmiş ki, səni oraya aparacağıq. Hamı şəhərin kənarına çıxıb bizi gözləyirdi. Bizi görən kimi sinc-təbil çalınmağa başlandı. Nəcəfin müctəhidləri irəli gəlib nə'şini bizdən aldılar. Bu vaxt Əli qəbrindən nida gəldi ki, bu mollanın cənazəsi Mədinəyi-Münəvvərdə, Məhəmməd peyğəmbərin qəbrinin yanında dəfn edilməlidir. Qərəz, oradan üz tutduq Mədinəyə. Səni peyğəmbərin qəbrinin başına dolandırdıq.
...Ayaq tərəfdə sənin üçün təzəcə qəbir qazmağa
başlamışdıq ki, nə görsək yaxşıdır? Qazdığımız yerdən bir böyük daş qopdu. Demə, bura köhnə qəbir imiş. İçindən ağ kəfənə bürünmüş bir meyit çıxdı. Üzünü camaata tutub dedi:
- Ey müsəlmanlar, məgər sizin gözünüz yoxdur? Bura
zibillikdir? Aparın atın onu zibil qutusuna, mümkün etsəniz yandırın ki, üfunəti aləmə yayılmasın.
Biz də elə elədik və kor-peşman dala qayıtdıq.
- Molla əmi, bir stəkan da çay olar?
Molla əsəbiliklə çığırdı:
- Dur rədd ol buradan! Sənə çay vermək haramdır!

İMAMZADƏ VƏ TÜLKÜ
Bir kişi qonşu kəndə gedəndə gördü ki, yolun
kənarında od qalanıb, bir sandıq yanır. Kişinin sandığa hayıfı gəldi, onu odun içindən çıxartdı. Açıb içinə baxanda gördü ki, zorba bir ilan qıvrılıb qalıb. İlan tez sarıldı kişinin boynuna, dil açıb dedi:
- Sən ki məni oddan xilas elədin, bunun əvəzində mən
də sənə yaxşılıq eləmək istəyirəm. Yaxşılığım da bu olacaq ki, özün deyəsən, səni harandan sancım.
Kəndli çox yalvarıb-yaxardı, heç bir şey çıxmadı. Bu
dəmdə oradan bir tülkü keçirdi. Tülkü onların mübahisəsini eşidib yaxına gəldi:
- Nə olub, qardaşlar?

Kəndli dedi:
- Bu sandıq o odun içində yanırdı, hayıfım gəldi,
çıxartdım ki, yanmasın. Sandığı açanda bu ilan içindən çıxdı, sarıldı mənə. İndi də deyir ki, bu yaxşılığın əvəzində səni sancmalıyam.
Tülkü üz-gözünü turşudub kəndliyə acıqlandı:
- Kişi, sənin üçün ayıb deyil ki, bu boyda yalan
danışırsan? Bu boyda ilan da o sandığa yerləşər?
İlan kəndlinin doğru danışdığına şəhadət verəndə tülkü dedi:
- Sən də yalan danışırsan, axı bu uzunluğunda ilan o
sandığa yerləşməz!
- Bax gör necə yerləşirəm, - deyə ilan kəndlinin
boğazından açılıb girdi sandığa. Tülkü kəndliyə işarə elədi ki, sandığı örtsün. Kəndli də sandığı örtdü, götürüb atdı odun içinə.
Tülkü dedi:
- Bu yaxşılığımın əvəzində səndən bir xahişim var: mən ovçuların əlindən buraya qaçmışam. Onlar təpənin o tərəfindədirlər. Əgər səni görsələr, nəbadə onlara deyəsən ki, bu tərəfdəyəm, yoxsa gəlib məni tutarlar.
Ayrıldılar. Kəndli təpəni aşdı, ovçular onu görüb
tülkünü soruşdular. O da tülkü gedən tərəfi göstərdi.
Ovçular atı o tərəfə döndərdilər. Tülkünü görüb başladılar qovmağa...
O yaxında bir İmamzadə qəbri var idi. Tülkü İmamzadə qəbrinə yalvardı:
- Ey pir sahibi, məni bu ovçuların xatasından xilas elə.
Nəzir eləyirəm ki, hər gün gəlib quyruğumla bu yerləri
süpürərəm.
Tülkü gördü ki, qəbrin yanında yuvaya oxşar bir deşik
açıldı, tez girdi oraya. Ovçular nə qədər axtardılarsa, tapa bilmədilər.
Tülkü yuvada xeyli qaldı, axırda darıxdı. Başını azacıq
bayıra çıxarıb baxdı, heç kimi görmədi. Ürəklənib yavaşyavaş yuvadan çıxdı. Üzünü tutdu İmamzadənin qəbrinə və dedi:
- Ey pir sahibi! Çox sağ ol ki, tülküyə inandın, məni
yuvada saxladın. Ancaq bilməlisən ki,. Mənim süpürgəm yoxdur. Quyruğumla bu qədər yeri necə süpürə bilərəm?
Gücün varsa, o kəndliyə qəzəb elə ki, yaxşılığı itirdi, məni ovçulara nişan verdi.

## QÜDRƏTİ-İLAHİ

Bir kişi səfərə gedirdi, bir bardaq qızılını əmanət
saxlamaq üçün qazının yanına gətirdi. Qazı evin taxçasını pul yiyəsinə göstərib dedi:
- Öz əlinlə əmanəti taxçaya qoy, gəlib öz əlinlə də
oradan götürərsən.
Kişi bardağı taxçaya qoyub getdi. Qazı bardağı açıb,
qızılları boşaltdı, bal ilə doldurdu.
Bir neçə aydan sonra pul yiyəsi gəlib əmanətini istədi.
Qazı taxçanı göstərib dedi:
- Özün qoyduğun yerə əl uzat, götür.
Kişi bardağı götürüb evinə apardı. Açıb içində qızıl
əvəzinə bal gördü. Durub başılovlu qazının yanına gəlib, əhvalatı danışdı. Qazı halını

pozmadan dedi:
- Allahın qüdrətindən uzaq deyil, səni heçdən yaradan allah qızılı da bal eləyə bilər.
Kişi kor-peşman evinə qayıtdı, özünü məzəmmət etməyə başladı: «Mənə deyən gərək, ay axmaq, adam da qoyunu qurda tapşırar!»
...Haradansa Bəhlul Danəndə bu əhvalatı eşitdi, kişini çağırtdırıb dedi:
- Heç ah-uf eləmə, get evinə, üç-dörd aya sənin pullarını qazıdan alarıq.
Qazının oğlanları Bəhlulun evində ondan dərs alırdılar.
Bəhlul ovçuların vasitəsilə bir cüt ayı balası tapdırdı və onlara tə'lim verməyə başladı. Əvvəlcə qazının müqəvvasını düzəltdi. Onu başında əmmamə, çiynində əba, yerdə əyləşən qoyub, hər gün ayı balalarını müqəvvanın dizi üstə yedirib içirdirdi... Beləliklə, ayı balaları qazının müqəvvasına öyrəşdilər.
Bir gün Bəhlul dərsdən sonra qazının oğlanlarını evə buraxmadı, onları bir otağa saldı. Qazı axşamüstü oğlanlarının evə gəlmədiyini görüb Bəhlula xəbər göndərdi ki, uşaqlar niyə evə qayıtmayıblar? Bəhlul da cavab verdi ki, təəccüblü bir hadisə baş verib: uşaqlar dönüb ayı olublar; qazı gəlib ayı balalarını apara bilər. Bu xəbəri eşidən qazı tez Bəhlulun yanına getdi. Bəhlul ona da əvvəl dediyi sözləri söylədi.
Qazı gedib Haruna şikayət elədi. Harun Bəhlulu çağırtdırıb əhvalatı soruşdu. Bəhlul dedi:
- Xəlifə sağ olsun, qazının uşaqları kitab oxuduqları zaman mən bayıra çıxmışdım, qayıdıb otağa girəndə gördüm ki, uşaqların yerində iki ayı balası əyləşib. O dəqiqə başa düşdüm ki, allahın qüdrətilə uşaqlar dönüb ayı balası olublar. İnanmayırsınızsa, gedim bu saat ayı balalarını, yə'ni qazının uşaqlarını gətirim məclisə.
Bəhlul getdi, qazı Harunun məclisində oturub gözlədi.
Çox çəkmədən Bəhlul ayı balalarını Harunun məclisinə gətirdi. Bəhlul iki gün idi ki, ayı balalarını ac saxlayırdı. İçəri gircək onları buraxdı. Ayılar ətrafa baxmayıb, birbaş qazının üstünə cumdular və həmişəki adətləri üzrə, burunları ilə onun əbasının və ləbbadəsinin altını axtarmağa başladılar.
Bəhlul dedi:
- Xəlifə sağ olsun, hərgah bunlar qazının uşaqları deyilsə, bəs niyə məclisdə oturan bu qədər adamı qoyub təkcə qazının üstünə cumdular?
Qazı mə'yus olub evinə qayıtdı. Axşam olcaq Bəhlulun yanına gəlib dedi:
- Bəhlul, düzünü de, bu nə kələkdir mənin üçün qurmusan? Axı adam dönüb ayı ola bilməz!
Bəhlul dedi:
- Sənə əmanət verən kişinin balı qızıl olmayınca, ayı balaları da dönüb sənə oğul olmayacaqlar.
Qazı tutduğu işdən peşman olub, qızılları Bəhlula verdi.
Bəhlul da uşaqları buraxıb, qızılları sahibinə qaytardı.

## KƏFƏh OĞRUSU

Bir kişinin sənəti həm mollalıq, həm də ölü yumaq idi.
Bundan əlavə hərdənbir qəbiristana da gedərdi, ona-buna pulla yasin oxuyardı. Elə ki, gördü bir təzə ölü gətiriblər, halva-çörəyi alıb yeyəndən sonra gedib bir tərəfdə gününü keçirərdi, qaş qaralandan sonra isə təzə ölünün qəbrini açıb, kəfənini çıxardar, aparıb evində saxlar, lazım olanda baha qiymətə satardı.
...Onun xəstə bir qonşusu vardı, özü də mollanın fırıldağını bilirdi. Bir gün mollanı çağırtdırıb yanına əyləşdirir. Ev adamlarını o biri otağa keçirib mollaya deyir:
Sənin əməllərini də yaxşı bilirəm.
Sonra xəstə qonşu yastığının altından iki dənə təzə kəfən çıxardıb mollanın qabağına qoyur.
- Bax, ikisi də birdir, hansını bəyənirsən götür, apar, ancaq qonşuluqda səndən bir xahişim var: mən öləndən sonra gedib qəbrimi açma, kəfənimi çıxartma.
Molla kəfənin birini götürüb gedir. Bir neçə gündən sonra xəstə ölür. Mollanı çağırırlar, gəlib ölünü yuyur.
Aparıb dəfn edirlər. Axşam olur. Molla öz-özünə deyir:
«Yaxşı, bu qonşum öldü, dəfn də elədik, onsuz da bu kişi torpaq altında çürüyəcək, təzə kəfən nə üçün xarab olsun?»
Durub gedir, qonşunun qəbrini açır, ölünü soyundurur, kəfənini götürür və fikirləşir: «Mən bir nəfərə görə səliqəmi poza bilmərəm!»

## BU DA ONUN DƏRİSİ

Bir çodar öz qoyunlarını yaylağa aparırkən axşamüstü bir yerə çatıb kəndin mollasına qonaq olur. Mollanın güzəranının pis keçdiyini görüb ona rəhmi gəlir, deyir:
- Molla əmi, mənim sənə yazığım gəlir, istəyirəm ki, sənə yaxşılıq eləyim.
Molla deyir:
- Mən də əvəzində dua elərəm, allah günahlarından keçər. Çodar deyir:
- Mənim qoyunlarım çoxdur. Onların yüzünü əmanət olaraq sənə tapşırıb gedəcəyəm. Bir ilin ərzində qoyunlardan nə xeyir gəlsə, süd, yun, bala, hamısı sənin. İl başında gəlib qoyunlarımı aparacağam.
Molla çox şad olub yüz qoyunu təhvil alır. Çodar gedir.
Molla başlayır, nə başlayır! Qoyunların kəsiləndini kəsir, satılanı satır. İl başına bir qoyun qalır. Bir gün çodarın yaylağa gəlməsini mollaya xəbər verirlər. Molla axırıncı qoyunu da kəsir. Ətini qovurub bardağa doldurur, dərisini də bir küncə atır.
Çodar gəlir. Qoyunları həyətdə görməyəndə fikirləşir ki, yəqin molla sürünü çöldə saxlayır. Görüşüb əyləşəndən sonra molla arvadını səsləyir:
- Arvad, dur get qonşudan bir kasa qatıq al, de ki, mollanın qonağı gəlib.
Çodar təəccüb edir soruşur:
- Molla, qoyunları harada saxlayırsan?
Molla, divardan asılmış hesab çotkasını götürüb çodarın qabağına qoyur:

- Mən deyim, sən sal... Sən mənə yüz qoyun vermişdin,düzdür?
- Bəli, düzdür...
- Otuzunu verdim qəssaba, çıx, iyirmisini gətirmə
hesaba, çıx. Otuzu qayadan uçdu, çıx. On doqquzu qarnıma düşdü, çıx. Yerdə qaldı birisi – bu da onun dərisi!

## TƏKLƏMƏSƏN, DÖYMƏZSƏN

Axund, seyid və dərviş yol ilə keçirkən hasarlı bir bağa rast gəlirlər. Birtəhər hasarı aşıb bağa girirlər. Meyvələrdən dərib yeyərkən bağban gəlib çıxır. Hörmətlə onlara deyir: «Burada niyə əyləşibsiniz! Evimizə buyurun!»
Onlar razılıq edib evə gəlmirlər. Onda bağban dərvişə
deyir:
- Dur gedək, lamahala, sənə bir palaz verim, gətir,
salın altınıza.
- Gedək.
Bağban dolama yollarla dərvişi bağın o başına aparıb
soruşur:
- Ağa dərviş, harada yazılıb ki, xalqın hasarlı bağına
icazəsiz girəsən və sahibindən xəbərsiz meyvələrini dərib yeyəsən?
Bunu deyib dərvişi yıxır yerə, öz qurşağı ilə onu bir
ağaca bağlayıb o ki var döyür. Sonra axundla seyidin yanına qayıdıb soruşur:
- Bəs dərviş hanı? Mən ki, sizin üçün onunla xalçapalaz, balış göndərdim!
Axund deyir:
- Yəqin ki, yolu azıb.
Bağban bu dəfə seyidə deyir:
- Onda dur gedək, dərvişi axtaraq.
Bağban seyidi də bağın o biri tərəfinə aparır, yaxşıca
döyəndən sonra bir ağaca bağlayıb, axundun yanına qayıdır.
Axunda yaxınlaşıb deyir:
- Axund ağa, de körüm, kimdən izn aldın, bu bağa
girdin? Sənin təbliğ etdiyin şəriət buna nə vaxt icazə verib?
Bu ki, açıq-açığına oğurluqdur! – Bunu deyib düşür axundun üstünə, o ki var, döyur.
Sonra hər üçünü buraxıb deyir:
- Gedin, bir də belə qələtləri eləməyin!
Odur ki, deyiblər: «Təkləməsən, döyməzsən!»

## ÜÇ AXMAQ

Üç molla küçədə əyləşib söhbət edirdi. Bir tacir onların
yanından keçəndə salam verdi. Mollaların hərəsi tacirin salamına bir cür əleykəssalam dedi, sonra da bir-biri ilə mübahisəyə başladılar: «Niyə sən tacirin
salamına cavab verdin, axı o, mənə salam verdi!», «Yox, o, salamı mənə verdi...»
Həqiqəti aşkara çıxarmaq üçün üçü də tacirin ardınca
qaçıb dedi:
- A kişi, doğrusunu de, sən salamı kimə verdin?
Tacir gülümsəyib dedi:
- Hansınız axmaqsınızsa, mən salamı ona vermişəm.

Sübut edin.
Mollalardan biri özünü irəli verib dedi:
- Mən məsciddə uşaqlara dərs verirəm. Şagirdlərimə
öyrətmişəm ki, nə vaxt səbir gətirsəm, qələm-kağızı yerə qoyub desinlər: «Molla, xeyir olsun!» Bir gün evdən xəbər gəldi ki, arvadım quyudan su çəkəndə satılı quyuya düşüb, çıxarmaq lazımdır. Böyük şagirdlərdən bir neçəsini götürüb evə gəldim. İpi belimə bağladım, onlar məni
quyuya salladılar. Quyuda ipi belimdən açıb satıla bağladım.
Şagirdlərim satılı çəkib çıxartdılar. Sonra ipi öz belimə
bağladım, onlar yavaş-yavaş məni dartmağa başladılar.
Quyunun ağzına bir az qalmış necə oldusa, səbir gətirdim.
Şagirlər ipi buraxıb, həmişəki adətləri üzrə əllərini bir-birinə vurub dedilər: «Molla, xeyir olsun!» Quyunun dibinə getdim.
Çox əziyyətdən sonra məni çıxartdılar. Beləliklə, özüm qolqabırğamı sındırıb, aylarla yorğan-döşəkdə yatdım. Hələ də yaxşı olmamışam. Bu axmaqlıq deyil, bəs nədir?
İkinci molla dedi:
- Mən də dərs verən mollayam, özüm də qayğanaq
yeməyi çox sevirəm. Bir gün evə qayıdanda gördüm ki, arvad təndir üstə əyləşib çörək yapır. Ürəyim yaman qayğanaq istəyirdi... Arvaddan çox qorxduğuma görə səsimi çıxartmadım, yavaşca otağa girib ləmədən beş dənə yumurta götürüb papağımın içinə yığdım, bardaqdan da iki qaşıq yağ götürüb kağıza büküb, qoltuq cibimə qoydum. Fikrim bu idi ki, gedib yaxındakı dükanda qayğanaq bişirim. Yavaşyavaş otaqdan çıxmaq istəyəndə yıxıldım. Arvad məni görüb çağırdı: «Ay kişi, gəl mənə kömək elə, xəmiri yastıla, çörəklər küt gedir». Qalxıb arvada köməyə gəldim. Demə, təndirin istisindən qoltuq cibimdəki yağ əriməyə başlayıbmış. Bunu görən arvad dedi: «Ay kişi, bu nədir?» «Yağdır» dedim «qayğanaq bişirməyə aparırdım». «Yağı da, ay axmaq, cibə qoyarlar?» deyə, arvad ikiəlli
başıma bir qapaz endirdi. Papaq keçdi gözümün üstünə, yumurtaların ağı-sarısı saqqalım uzunu axmağa başladı. Bu da mənim axmaqlığımdır!
Üçüncü molla dedi:
- Mən də dərs verən mollayam, özüm də çox əzazil və
tələbkar olduğumdan, uşaqlara rahatlıq vermirdim. cümə, cümə axşamı bilməzdim, şagirdlərə çoxlu tapşırıqlar verərdim, haqq-nahaq onları döyərdim. Odur ki, şagirdlərin məndən zəhləsi gedərdi... Bir gün uşaqlar sözü bir yerə qoyub məndən canlarını qurtarmaq qərarına gəlirlər. Səhər tezdən hər içəri girən şagird soruşurdu:
- Molla, azar olmasın?
Mən onlara acıqlanıb soruşdum:
- Məgər məndə nə var?
Dedilər:
- Molla əmi, rəngin sapsarıdır, gözlərin düşüb çuxura,
ordların batıb, daha nə bilim... Fikirləşdim ki, bəlkə
doğrudan da məndə bir şey var... canıma üşütmə düşdü, yavaş-yavaş başımı məscidin divarına söykədim ki, özümə toxtaqlıq verim, mümkün olmadı... Titrəmə canımı almışdı.
Axırda naəlac şagirdlərə dedim:
- Uşaqlar, bu gün dərsdən azadsınız, gedin evinizə,
mən də gedim evdə yatım, görək sabah nə olar?

Böyük şagirdlərdən bir neçəsi irəli gəlib dedi:
- Molla, biz razı olmarıq ki, sən ayaqla gedəsən, axı bərk xəstəsən. Gərək səni dalımızda aparaq!
Qərəz, uşaqlar məni arxalarına alıb evə gətirdilər.
Arvad mənim üçün yer salıb, bişirdiyi bozbaşın küftələrini çıxartdı, suyuna düyü töküb şorba hazırlamağa başladı.
Küftələri də başımın üstündəki dolaba qoydu. Küftənin iyi yorğan-döşəkdə məni elə çaldı ki, biixtiyar dolabı açıb küftənin birini götürdüm... Bir dişləm vurmuşdum ki, arvadın ayaq səslərini eşitdim. Qorxudan küftənin hamısını ağzıma soxdum. Ağzımı yumub dayandım. Arvad içəri girib məni bu halda görəndə elə bildi ki, sifətim şişib, qorxusundan çığırmağa başladı: «Vay, evim yıxıldı! Kişi şişib motala dönüb!»
Qonşudakı dəlləyi çağırmağa qaçdılar. Mən də fikirləşdim ki, ağzımdakı küftəni yesəm, dəllək görəcək ki, ordum batıb, arvadı danlayacaq. Deyəcək ki, şiş nə tez yatdı?
Yaxşısı budur ki, dayanıb gözləyim, görüm başıma nə gəlir...
Dəllək gəldi. Barmağı ilə ordumu yoxladı, «ağzıvı aç» dedi.
Qorxumdan açmadım. Dəllək üzünü arvada tutub dedi: «Bu yaman dərddir gərək çərtilsin» Arvad razı oldu, ordumu çərtib küftəni çıxartdılar. Budur bu da ülgücün yeri!
Tacir dedi:
- Mən eşitmişdim ki, molla tayfası ağıldan kəm olar, ancaq sizin kimilərini nə eşitmişdim, nə də görmüşdüm. O ki qaldı salama, mən sizi ağıllı adam bilib salam vermişdim, demə, siz zırrama, əməlli-başlı gicmişsiniz.

## DƏRVİŞ VƏ TƏMBƏL

Bir kişi çox tənbəl idi, əlindən heç bir şey gəlmirdi.
Arvadı işlərdi, o yeyərdi. Nəhayət, arvad cəzana gəlib deyir:
- A kişi nə vaxtacan evdə oturacaqsan? Yə'ni odun da qıra bilməzsən?
Arvad baltanı, ipi kişiyə verir, onu itələyə-itələyə evdən bayıra çıxarır.
- Özün bil, odun gətirməsən, səni evə buraxmayacağam.
Kişi naəlac qalıb meşəyə gedir. Başlayır çör-çöp axtarmağa. Bu zaman bir dərviş oxuya-oxuya gəlir. Dərvişin səsi meşəyə düşür, çox qorxulu əks-səda verir. Tənbəl kişi qorxub ağaca dırmaşır. Demə, tənbəl çıxan ağacın dibindən su axırmış. Dərviş düz gəlib həmin ağacın dibində əyləşir.
Kəşkülündən bir qədər mum çıxardıb əlilə yumşaldır, mumdan bir adam heykəli düzəldib ona deyir:
- Tutaq ki, sən Adəmsən! Sən ki, behiştdə idin, niyə allahın sözündən çıxdın, buğdanı yeyib behiştdən qovuldun, bizi də zəlalətə saldın?
Bu sözləri deyəndən sonra təbərzini ilə Adəmin başından vurub iki parça eləyir. Bir qədər sonra həmin mumdan başqa surətlər yaradıb, onları da bu qayda ilə öldürür. Sonra, dərviş bir əcaib-qərayib heykəl düzəldir.
...Dərvişin bu işlərinə tənbəl ağacdan təəccüblə baxırdı.
Bir də görür ki, dərviş üzünü təzə heykələ tutub deyir:
- Belə hesab edək ki, sən Allahsan! Ey Allah, əgər sən doğrudan da allahsansa, bəs araya fəsad salan

peyğəmbərlərin ipini niyə dartmadın?
Dərviş bu sözləri deyəndən sonra təbərzinini qaldırdı ki, allahı da öldürsün, kişi biixtiyar qışqırdı:
- Ağa dərviş, amandır, allahı öldürmə, dünya künfəyəkun olub dağılar!
Dərviş elə bildi ki, bu sözlər qeybdən gəlir, qorxudan bağrı çatlayıb öldü.
Tənbəl ağacdan xeyli baxandan sonra gördü ki, dərviş daha tərpənmir, yavaşca ağacdan düşüb dərvişə yaxın gəldi.
Yəqin eləyəndə ki, dərviş ölüb, onun belindən qızıl kəmərini və dolu həmyanını (pul kisəsini) götürüb geri qayıtdı...
Arvad divar üstündən baxıb gördü ki, əri odunsuz gəlir, səsləndi:
- Kişi, odun gətirməyənəcən qapını açmayacağam, səni evə buraxmayacağam!
Kişi qapının dalından arvada dedi:
- Ey nazlı yarım, aç qapını! Mən sənə odun yox, çoxlu pul gətirmişəm.
Arvad qapını açdı, kişi içəri girdi. Qızılları arvadın qabağına tökdü. Arvad pulları görüb gözləri bərələ qaldı:
- A kişi, bu qədər pul sənə haradan?
Kişi başına gələn əhvalatı danışandan sonra dedi:
- Bu pul ölümüzə də bəsdir, dirimizə də... Daha oduna getməyəcəyəm!

## ON İKİ NƏĞMƏ

Mollanın bir qıza gözü düşür. Qız ona tay olmadığı üçün mollanı dolamaq məqsədilə deyir:
- Mənim ərim gərək saz çalmağı bacarsın.. bir halda ki, molla saz çalmağı haram buyurub, bizimki tutmayacaq.
Molla deyir:
- Ay mənim canım-ciyərim, təki sən razı olasan, mən buna yol taparam. Lap saz da çalaram, qaval da!
Doğrudan da molla bir çalğıçının vasitəsilə on iki nəğməni tamam öyrənir və gəlib qız üçün çalır. Qız görür ki, molla dediyini eləyir, işi bir az da çətinə salır:
- Ay molla – deyir,- bu kifayət deyil, hərgah sən doğrudan da məni istəyirsənsə, gərək mənim xatirimə məsciddə minbər üstündə xəlayiq arasında saz çalasan.
Molla deyir:
- Heç eybi yoxdur, hiyleyi-şərə nə var? Baş üstə, məsciddə də çalaram.
Molla əbasının altına bir saz qoyub məscidə gəlir, minbərə çıxır. Bir qədər o yandan, bu yandan danışandan sonra gəlir mətləb üstünə, çalğının haram olmasını söyləyir:
«camaat! Dünyada neçə cür çalğı havası var ki, bunlara on iki nəğmə deyirlər. Bunları çalmaq haramdır. Bir hava da var ki, onu çalmaq cayizdir. Bunları sizə sözlə başa sala

bilmərəm.
Lazımdır ki, əyani olaraq göstərim.
Molla əbasının altından sazı çıxardır. camaat
təəccüblənir. Məscid hara, minbər üstə mollanın saz çalmağı hara? Molla deyir:
- camaat, heç təəccüb eləməyin, mənə diqqətlə qulaq
asın. Çalmağa başlayır və hər nəğməni çalıb qurtarandan sonra deyir: «Bu havanı çalmaq cayiz deyil, haramdır!» Bu qayda ilə on iki nəğməni çalıb qurtarır. Axırda deyir:
- Bu çaldıqlarımın hamısı haramdır. Ancaq bir hava da
var ki, ona on üçüncü nəğmə deyirlər, onu çalmaq halaldır, o da budur! O, sazı minbərin kənarına vurub sındırır və deyir:
«Belə etmək lazımdır, harada saz gördünüz vurub sındırın!»
Molla məsciddən çıxıb gəlir qızın yanına. Qız deyir:
- Molla, doğrudur çaldın... Amma bir adamın iki, qövlü
ilə fe'li bir olmaya, mən ona yaxın düşmərəm. Rədd ol! Mən
sənin kimi ikiüzlüyə getmərəm!

İNSAN VƏ ŞEYTAN
Yaz günü bir kişi harasa gedirdi. Birdən göy guruldayıb ildırım çaxdı, şıdırğı yağış yağmağa başladı. Kişi o yan-bu yana nə qədər baxdısa, daldalanmağa bir yer tapmadı. Axırda əlacı kəsildi, soyunub paltarını bir daşın altına qoydu, özü də üstünə əyləşdi. Bir azdan göydəki buludlar dağıldı, yağış dayandı, gün çıxdı. Kişi paltarlarını geyinib yoluna davam etdi. Şeytan bir insan cildində kişiyə yanaşdı.
Görüşdülər. Kişi soruşdu:
- Kimsən, ay qardaş, haradan gəlib, haraya gedirsən?
Şeytan dedi:
- Mən İblisəm, özüm də istəyirəm ki, şəhərdəki
adamları toruma salım!
Kişi dedi:
- Axı bu doğru sözə oxşamır! Mollalar şeytanı bizə
başqa şəkildə nişan veriblər. Guya şeytan çox eybəcərdir, bir gözü kordur, yekə burnu var, əndamı tüklüdür, uzun da quyruğu var...
Şeytan gülüb dedi:
- Qələm düşmən əlindədir, nə cür istəyiblər, o cür də
təsvir ediblər. Çox şey var ki, mən bilmirəm. Budur, düzüdünyanı su tutub, mən bu kökdə, amma sən qupqurusan.
Mən gərək bir yüz il baş sındıram ki, bilim, yağış altında sən necə olub ki, islanmamısan?

SƏNİN Fe'linə DÜŞMÜŞƏM
Bir kişi səfərə gedəndə qazıya yüz manat əmanət
tapşırmışdı. Səfərdən qayıdıb qazıdan pulunu istədi. Qazı kişinin pulunu vermədi. Kişi də əlacsız qalıb evinə getdi.
Bu əhvalatdan xəbər tutan bir qonşu arvad kişinin
yanına gəlib dedi:
- Fikir eləmə, pulunu qazıdan elə bu gün alaram.
Arvad qonşulardan bir qədər ağır-yüngül birovuz alıb,
bir məcməyiyə yığdı, üstünü örtdü. Kişini çağırıb dedi:

- Bax, mən bu qızılları aparıram qazının yanına, əmanət tapşıracağam, mən içəri girəndən bir az sonra sən də dalımca gəl, mənim yanımda qazıdan pulunu istə, onda qazı sənin pulunu verər.
Arvad ev qulluqçusuna isə belə tapşırdı:
- Mən qazının yanına gedəndən bir az sonra dalımca
gəlib deyərsən: - Xanım, gözün aydın olsun,, ağam gəldi.
Arvad qızılları qazının evinə apardı, üstünü açıb
göstərdi və dedi:
- cənab qazı, mənim ərim səfərdədir, bu gün-sabah
gəlməlidir. Eşitmişəm evimizə oğru gələcək, ona görə bu qızılları gətirdim ki, saxlayasan.
Qazı qızılları görcək gözləri dörd açıldı və əmanəti
qəbul etməyə razı oldu. Arvad qızılları bir-bir təhvil verməyə başladı. Bu zaman həmin kişi içəri girib qazıya salam verəndən sonra:
- Əmanətim üçün gəlmişəm, - deyə, pullarını istədi.
Qazı fikirləşdi ki, hərgah bununla höcətə başlasa, arvad bir məcməyi qızılı ona tapşırmaz, odur ki, dinməz-söyləməz kişinin yüz manatını verdi. Kişi pulu
alıb cibinə qoyanda qulluqçu içəri girib sevinə-sevinə dedi:
- Xanım, gözün aydın olsun, ağam gəldi!
Xanım bu xəbəri eşidəndə qızılları qabağına çəkib
oynamağa başladı. Bu zaman qulluqçu da oynadı, kişi də bunlara qarışdı. Qazı da naəlac onlara qoşuldu.
Xanım üzünü əmanət tapşıran kişiyə tutub dedi:
- Sən niyə oynayırsan?
Kişi dedi:
- Pullarımı qazıdan almışam, ona görə oynayıram.
Xanım qulluqçudan soruşdu:
- Sən niyə oynayırsan?
Qulluqçu dedi:
- Ağam gəlib, ona görə...
Xanım dedi:
- Mən də ərim gəldiyi üçün oynayıram... Ay qazı, bəs
sən niyə oynayırsan?
Qazı dedi:
- Mən də sənin fe'linə düşmüşəm, ona görə oynayıram.

## AĞ TƏPƏ, YA GİLLƏTMƏ?

Mollaya dedilər: «Filan yerdə ehsan verirlər, səni də
çağırıblar!» Molla soruşdu: «Ağ təpədir, ya gillətmə?»
Dedilər: «Onda özünüz gedin! Ağ təpə olanda mənə xəbər verərsiniz!»

## MƏNDƏN AXMAĞI BU OTURANDIR

Bir balıqçı kəndin kənarında, çöldə köhnə balıq torunu
sərib, yırtıq-yamağını düzəldirdi. Kəndin mollası şəhərə gedəndə yolu balıqçının yanından düşdü. Onu görüb soruşdu:
- A kişi, burada nə qayırırsan?
Balıqçı hirslənib cavab verdi:

- balıq tuturam!
Molla təəccüblə:
- Çöldə də balıq tutarlar?
Balıqçı dedi:
- Molla əmi, sən ki, həmişə allahın qüdrətindən
danışırsan. Məncə allahın qüdrətindən uzaq deyil, dəryada balıq verən allah, istəsə, quruda da verər. Odur ki, mən burada balıq tutmaq istəyirəm.
Molla dedi:
- İndi ki, elədir, mən şəhərə balıq almağa gedirdim,
daha getmərəm, oturaram gözlərəm, sən balığı tutarsan, mən də səndən alaram!
Molla əyləşib balıqçını gözləyir... Gün keçir, axşam
olur, balıqçını öz yırtıq-yamaq işini davam etdirir. Başqa bir şəxs də yol ilə keçirmiş, özü də balıqçının dostlarından imiş. O balıqçı ilə salamlaşıb soruşur:
- Allah qüvvət versin, bu vaxt burada nə qayırırsan?
Balıqçı deyir:
- Balıq tuturam!
Yolçu deyir:
- Ay dost, mən səni bir ağıllı adam bilirdim, nə axmaq
adammışsan! Quruda da balıq tutarlar? Balıq dəryada olar!
Balıqçı cavab verir:
- Ay dost, məndən axmağı bu molladır, səhərdən
əyləşib gözləyir ki, mən səhrada nə vaxt balıq tutacağam, o da məndən balıq alıb aparacaq!

ALLAHÜ-ƏKBƏR, ALLAHU-ƏKBƏR
Balıqçı Dadaşın nökəri Abbas dayı namaz qılmazdı.
Ağası ona nə qədər məzəmmət edərdi, o öz sözünün
üstündə durub deyərdi «Qılmıram, çünki bilmirəm!»
Dadaş nökərinə namaz qılmağı öyrətmək istədi. Abbas dayını çağırıb ona dedi:
- Ayaq üstə dayan, üzünü də qibləyə çevir. Əllərini qoy qulaqlarının dibinə və de: «Allahü-əkbər». Abbas dayı elə edib dedi:
- «Allahu-əkbər»
Dadaş dedi:
- Olmadı. Mən deyirəm. – Allahü-əkbər! Sən isə
deyirsən: Allahu-əkbər! Bir də de: - Allahü-əkbər!
Abbas dayı yenə də öz bildiyini dedi:
- Allahu-əkbər!
Dadaş acıqlandı:
- Zəhrimar allahü-əkbər!
Nökər elə bildi ki, Dadaşın dedikləri namazın bir
hissəsidir, o da təkrar etdi:
- Zəhrimar allahu-əkbər!
Dadaş üz-gözünü turşudub:
- Rədd ol buradan! – deyə çığırdı.
Abbas dayı namaz qılmağı öyrənə bilmədi.

## XIRDA OLANDA cÜT-cÜT BASDIRARLAR

Bir molla çox xəsis idi. Evdə çay içmək üçün qəndi lap xırda-xırda doğrayarmış.
Günlərin bir günü mollanın bir qonağı gəlir. Qonağın qabağına çay süzüb qoyurlar. Qonaq görür ki, qənd həddindən artıq xırda doğranılıb. Ona görə də qənd parçalarını ağzına iki-iki, üç-üç qoyub çayı içməyə başlayır.
Qonağın bu hərəkəti mollaya pis təsir edir, soruşur:
- Ay qonaq, sizin yerdə ölünü tək-tək basdırırlar, yoxsa cüt-cüt?
Qonaq mətləbi başa düşüb deyir:
- Böyük olanda tək-tək, kiçik olanda cüt-cüt, bəlkə də üç-üç basdırırlar.

## YOXSA UNUNUZ QURTARIB?

Bir dərs verən molla çox şorgöz idi. Öz şagirdinin anasına vurulmuşdu. Şagirdinə tapşırdı: «Get, anana de ki, molla dedi: «İm-şo»
Uşaq gəlib mollanın tapşırığını anasına çatdırdı. Anası cavab verdi ki: «İm-şo». Ertəsi gün uşaq anasının dediyini mollaya dedi. Molla axşamçağı onlara getdi. Arvad mollanı qəbul edib, otaqların birində əyləşdirdi.
Bu anda qapı döyülür, arvadın əri gəlir. Arvad cəld molla olan otağa keçir, mollanın başına bir çarşab salır, qabağına da əl dəyirmanı qoyur. Kisədə arıdılmış buğda var imiş. Arvad buğdanı mollanın qabağına qoyub deyir: «Kişi gəlib, sən hələlik məşğul ol, görək başımıza nə gəlir!»
Əri içəri girən kimi arvad onun qarşısına yüyürüb deyir:
- A kişi, bu otağa keçmə. Qonşumuzun arvadı gəlib, əl dəyirmanında özləri üçün un çəkir.
Molla səhərəcən əl dəyirmanında un çəkir, bir kisə buğdanı un eləyir. Səhər tezdən birtəhər aradan çıxıb qaçır.
Bir neçə gündən sonra, arvad mollaya sataşmaq məqsədilə, uşağa tapşırır ki, mollaya desin: «İm-şo». Uşaq da mollaya deyir. Molla uşaqdan soruşur: «Yoxsa ununuz qurtarıb?»

## YAMANLIĞA YAXŞILIQ

Köhnə Bakıda olan bir əhvalat
Məhəmmədhaşım Bakının yaxınlığındakı kəndlərdən birində yaşayırdı.
Bəndəli isə şəhərdə alver edirdi. Şamaxı yolunda baqqal dükanı vardı.
... Payızın axır günlərindən birində baqqal Bəndəli görür ki, küçə ilə üzüaşağı bir kəndli ulaqla saman gətirir.
Saman gətirən kəndli fatmayılı Məhəmmədhaşım imiş.
Bəndəli onu səsləyir. Saman satan kişi elə bilir ki, Bəndəli saman almaq istəyir, tez yaxına gəlir. Yükü yerə qoyur, xaralın ağzını açıb samanı göstərir. Xəsis Bəndəli kişinin təklif etdiyi qiymətlə güya razılaşmır və acıqla deyir: «Yığışdır zibilini, apar, cəhənnəm ol!» Məhəmmədhaşım özünü itirmədən sakit-sakit Bəndəliyə deyir: «A kişi, sən saman

alan adama oxşamırsan, bu çığır-bağırla deyəsən, cəhənnəmə sən özün gedəcəksən!»
Harın Bəndəli kəndliyə bir sillə vurur. Məhəmmədhaşım heç nə söyləmədən saman xarallarını ulağa çatıb yola düzəlir. Samanı aparıb Quba meydanında satır və geri qayıdır.
Saman əhvalatından bir neçə ay keçir. Yayın isti
günlərindən biri idi. Bəndəli ulağa minib, Nərdarandan
Novxanıya gedirdi. Yolu bağlar içindən keçirdi...
Fatmayının dəniz sahilində Məhəmmədhaşımın üzüm
bağı var idi. Yay gələndə kənddən köçüb bağda yaşayardı.
İndi də o, bağda idi. Avqust ayının istisi adamın başını
deşirdi. Qora bişirən istilər düşmüşdü. Bəndəli ulaq üstə susuzluqdan yanırdı. Birdən gördü ki, yolun kənarındakı bağın içində, meynələrin dibində bir kişi qurdalanır, başını da yaylıqla bağlayıb. Bəndəli qışqırır: «A kişi, susuzluqdan yanıram, mənə bir içim su ver». Kişi başını qaldıranda gələn adamı tanıyır, bilir ki, qəpik üstə dava salan baqqaldır. Ayağa qalxıb deyir: «Bura istidir, ulağı sür ağacın kölgəsinə, mən gedim su gətirim». Bəndəli bağ yiyəsini tanımır. Ulağı ağacın altına sürür.
Elə bu vaxt Məhəmmədhaşım bir əlində balaca xalça, o biri əlində çay evdən çıxır, Bəndəliyə yaxınlaşıb deyir: «Hava bərk istidir, su içmək zərərdir. Ulaqdan düş, əyləş, bir qədər dincəl, çay iç, sonra gedərsən!»
Bəndəli ulaqdan düşür. Məhəmmədhaşımın uşaqları
yüyürə-yüyürə gəlib ulağın qabağına arpa-saman töküb gedirlər.
Bəndəli hələ çayı içib qurtarmamış süfrə salınır, ortaya təndir çörəyi, bozbaş gətirilir.
Bəndəli deyir: «Ay kişi, bu nə xəcalətdir mənə verirsən? Mən səndən su istədim, çay verdin.
Çox sağ ol! Hələ üstəlik süfrə açmısan, aralığa bozbaş da qoymusan. Mən bu hörmətin altından necə çıxacağam!»
Məhəmmədhaşım deyir: «Ay qonaq, qayınanan səni çox istəyir, ruzi üstə çıxmısan!
Atalar deyib: «Gördün yemək, daha nə demək?»
Süfrədə hər şey var idi: üzüm, doğranmış qovun,
turşiyyat, göyərti... Bozbaş yeyiləndən sonar Məhəmmədhaşım Bəndəliyə deyir: «Qonaq, yedin, içdin, halal xoşun olsun. Hava bərk istidir. İstəyirsən, uşaqlar yorğan-döşək gətirsinlər, bir qədər istirahət elə, axşam sərin düşəndə gedərsən».
Bəndəli cavab verir: «Çox sağ ol, ruzin bol olsun,
süfrən açıq olsun, evin qonaqsız olmasın. Ancaq yolum uzaqdır, Novxanıya getməliyəm, axşama da qayıtmalıyam. İcazə versən gedərəm!»
Məhəmmədhaşımın uşaqları bir anda ulağı çullayır,
qonağı qaldırıb ulağa mindirirlər. Sonra Məhəmmədhaşım ulağın noxtasından tutub yola sarı aparır. Ulağın başını Novxanıya tutub deyir: «Qonaq, yaxşı yol! Ancaq, öz aramızdır, sən nə samanın, nə də adamın yaxşısını tanıyırsan!»
Bəndəli hələ də mətləbi başa düşməyib deyir: «Vallahbillah, bayaqdan ha fikirləşirəm, yadıma düşmür, səni harada isə görmüşəm!»
Məhəmmədhaşım deyir: «İndi ki tanımadın, onda qoy
mən özümü sənə tanıtdırım. Bir neçə ay bundan əvvəl
şəhərdə, Şamaxı yolunda, dükanının qabağında sillə
vurduğun saman satan kəndli mənəm! Yaxşı tanı! Silləni adama elə vurmazlar, bax, belə vurarlar. İndi isə get!»
Bəndəlinin üstünə sanki bir qazan soyuq su tökdülər.

Məhəmmədhaşım kişinin yaxşılığı onu sillədən də bərk tutmuşdu. O, özünü elə itirmişdi ki, heç bilmədi eşşəyi haraya sürür. Bir də ayılıb gördü ki, Pirşağıdadır. Daha Novxanıya getməli olmadı, öz kəndlərinə qayıtdı.
Odur ki, deyiblər: «Yamanlığa yaxşılıq ər kişinin işidir,
mərd kişinin işidir!»

AŞIĞINKI HAYDANDIR, MOLLANInKI VAYDAN
Molla aşığa rast gəlib soruşur:
- Ay aşıq, haraya belə gedirsən, xeyirdirmi?
Aşıq cavab verir:
- Molla, əlbəttə xeyirdir. Xeyirdir ki, mən gedirəm də!
Şər olsaydı, sən gedərdin! Nahaq deməyiblər ki, mollanınkı vaydandır, aşığınkı haydan!
SƏNİNKİ SƏNDƏ, MƏNİMKİ MƏNDƏ
Lənkəranlı Həsən Kərbalayı Ağanın «Anna» gəmisində qulluq edirdi. Novruz qabağı idi, gəmi Həştərxana doğru üzürdü. Gecə yarıya yaxın idi.
Həsən gəminin göyərtəsində tək dayanıb, növbə
çəkirdi. Hava sakit, dəniz şərəkət idi. Həsən gəminin yan tərəfindən bir səs eşitdi, əyilib səs gələn tərəfə baxmaq istəyəndə əli qaçdı, dənizə yıxıldı.
Həsənin əynində qalın qış paltarı, ayağında uzunboğaz çəkmə var idi, ancaq o yaxşı üzgüçü idi. Gəminin ardınca üzməyə başladı. Üzə-üzə qışqırırdı,
ancaq heç kəs onun səsini eşitmirdi, çünki hamı yatmışdı.
Həsənin hər yerdən əli üzüldü, çapalaya-çapalaya
üzünü göyə tutub qışqırdı: «Ya həzrət Abbas, fəryadıma yetiş. Mən səndən nicat istəyirəm! Məni bu ölüm dəryasından xilas elə, ömrüm boyu qazandığımın yarısını sənin yolunda ehsan edərəm!»
Həsən üzə-üzə paltarlarını bir-bir soyundu, çəkməsini çıxartdı. Əynində ancaq tumanı qaldı. Onu da ona görə çıxartmamışdı ki, tumanın lifəsinə tikilmiş bir qədər pulu var idi.
Həsən ulduz hesabı ilə sahilə tərəf üzməyə başladı. Bir qədər üzdü, hiss etdi ki, tuman da ona ağırlıq edir, canın dişinə tutub, tumanı da çıxartdı, pulla qarışıq atdı. O, inamla sahilə doğru üzür, tez-tez göyə baxıb, ulduz hesabı ilə yoluna davam edirdi.
Bu qayda ilə Həsən səhərə kimi üzdü. Səhər açıldı,
uzaqdan Bilgəh yaxınlığındakı Qələgah burnu göründü.
Həsən arabir yorğunluğunu alıb, üzməkdə davam edirdi.
Təxminən günortaya yaxın sahilə yaxınlaşdı, qabağına bir püştə çıxdı. Püştənin üstündə su az idi, özünü atdı puştənin üstünə ki, bir qədər dincəlsin, soyuq tez onun canına işlədi. Həsən gördü ki, dayansa donacaq, özünü püştədən suya atdı, üzə-üzə güclə özünü sahilə çatdırdı. Huşunu itirib ölü kimi yıxıldı.
…Həsənin xoşbəxtliyindən, dənizin kənarı ilə iki nəfər
bilgəhli balıqçı gedirmiş. Onlar dəniz sahilindəki lüt insanı ölü zənn edib ona yaxınlaşırlar. Qaldırmaq istəyəndə körürlər ki, nəfəs alır, tez öz paltarlarını Albe rta çıxarıb ona geyindirirlər. Arabaya qoyub onu kənd evlərinə aparırlar, ona isti-ılıq verirlər.
Həsən özünə gəlir, gözlərini açıb özünü kürsüdə görəndə təəccüb edir.
Həsən başına gələn əhvalatı bilgəhlilərə danışır.
Bilgəhlilər ona deyirlər ki, gəmi sahibi Kərbalayı Ağa öz bağındadır, bağını işlətməyə gəlmişdir. Yaxşı olar ki, elə səhər-səhər gedib əhvalatı Kərbalayı Ağaya danışsın, o da Həsənə köməklik edər. Bu zaman söhbətə qulaq asan başqa bir bilgəhli gülüb deyir: «Siz

Kərbalayı Ağanı tanımırsınız.
Ondan qışda buz almaq olmaz. O, Həsənə köməklik etməz, çünki çox xəsisdir.»
Səhəri günü Həsən gedib əhvalatı Kərbalayı Ağaya
danışdı. Kərbalayı Ağa cibindən bir manat çıxarıb Həsənə uzadır və deyir: «Al, bu bir manatı, yol pulu elə, haqq-hesabı kontor bilər».
Həsən bir manatı almır, kontora da getmir, başqa
qulluğa keçir. Ayda aldığı maaşın yarısını da Həzrət Abbas yolunda mollaya verirmiş.
Bir neçə ay keçir. Həsənin bir uşağı olur. Ailəsinin xərci artır. Həsən üzünü göyə tutub deyir: «Ya həzrət Abbas, külfətim artır, maaşım isə artmayıb, gəl nəzirimi üçdən bir eyləyək». Bir uşaq da olur, Həsən nəziri dörddən bir eyləyir.
Axırda təngə gəlib deyir: «Ya Həzrət Abbas, məncə yetər, daha bəsdir, daha verə bilmirəm. Səninki səndə, mənimki məndə!»

## EVLƏNMƏK İSTƏYİRƏM

Bir kişi qazının hüzuruna gəlib ərz elədi: «Ya qazı, mən xeyli zamandır ki, arvadımı itirmişəm, dul qalmışam. Özümə bir qulaq yoldaşı istəyirəm, yəni arvad almaq istəyirəm. Gəlmişəm ki, bu barədə mənə köməklik edəsən!» Qazı onu bir kənarda əyləşdirib, «gözlə!» deyir.
Bir qədər keçir. Qazının hüzuruna bir arvad daxil olur
deyir: «İki ildir ki, ərim vəfat eləyib, dul qalmışam. Ərə
getmək istəyirəm». Qazı onu da əyləşdirir.
Bir azdan daha iki arvad gəlir. Onlar da ərə getmək
istədiklərini söyləyirlər.
Qazı arvadlardan soruşur:
- Dünya malından nəyiniz var?
Birinci arvad deyir:
- Bir dəvəm var, hər işə yarayır.
İkinci arvad deyir:
- Bir inəyim var, yaxşı süd verir.
Üçüncü arvad deyir:
- Mənim də böyük bir xurma bağım var, öhdəsindən
gələ bilmirəm, ona görə də ərə getmək istəyirəm ki, mənə kömək olsun!
Qazı üzünü kişiyə tutub soruşur:
- Bu arvadların hansını almaq istəyirsən?
Kişi bir qədər fikirləşəndən sonra utana-utana cavab
verir:
- Qazı sağ olsun, sən buyurmusan ki, şəriət dörd
kəbinli arvad almağa icazə verir. O cəhətə mən istəyirəm ki, dəvəyə minim, inəyi yedəyimdə bağa aparım (yə'ni hər üçünü almaq istəyir).

## MOLLA ÖZÜ EDƏR, ÖZGƏYƏ ÖYÜD VERƏR

Bir kişi həddindən artıq çaxır içirdi. Lap küpün dibinə
girirdi... Məst olub yıxılıb qalmışdı.
Dedilər:
- Ay kişi, çaxırı içirsən iç, amma qaydasında iç! Axı
atalar deyir: «Dad dadı ilə, duz da dadı ilə!»

Kişi dedi:
- Mən həmişə qayda ilə içirəm, amma bu dəfə molla kimi içmişəm, ona görə də bu hala düşmüşəm!

## QARĞA VƏ KEŞİ Ş

Bir qarğa erməni kilsəsinin üstündə özünə yuva qurmuşdu, hər gün xaçın üstündə əyləşib batırarmış.
Kilsənin qulluqçuları qarğanı heç vəchlə tuta bilmirdilər.
Axırda baş keşişə müraciət etdilər, çarə istədilər.
Baş keşiş dedi: «Bir qaba çaxır doldurun, xaçın üstünə bağlayın. Nəticəsini də mənə deyin.»
Bu dəfə qarğa xaçın üstünə qonanda, qabdakı çaxırı görüb ondan bir qədər içir və keflənib yerə yıxılır.
Qulluqçular qarğanı tutub baş keşişin yanına gətirirlər.
Baş keşiş qarğanın qanadlarını və ayaqlarını bağlayıb onu yerə atır. Sonra üzünü qarğaya tutub deyir: «Ay qarğa, ermənisənsə, xaçı niyə batırırsan, müsəlmansansa, çaxır niyə içirsən?»

## MOLLA MİRZƏ MƏMMƏD

Qonşumuz Ramazan kişi İçərişəhərdə tanınmış adamlardan biri idi. Yaxşı güzəranı var idi. Ağa Zeynal adlı yeganə bir oğlu vardı.
Ramazan kişi oğlu üçün dəniz kənarında dörd qapılı qab-qacaq və samovar mağazası açmışdı. Ağa Zeynal da atası kimi əliaçıq, safürəki bir adam idi.
Atası Ağa Zeynalı evləndirmək istəyirdi. Odur ki, İçərişəhərin məşhur mollası, mərsiyəxan Mirzə Ağanı çağırıb qonşusu Məmməd cəfərin qızı üçün elçiliyə göndərir. Axşam vaxtı imiş. Yolda molla Mirzə Ağaya qalmalı Hacıməmmədhaşım oğlu Hacı Baba rast gəlir. Soruşur: «Molla Mirzə Ağa, xeyir olsun, bu şam vaxtı haraya təşrif aparırsınız?»
Molla Mirzə Ağa deyir: «Xeyirdir, inşallah! Ramazan kişinin oğlu Ağa Zeynal üçün qız elçiliyinə gedirəm. O, istəyir ki, Məmməd cəfərin qızını oğluna alsın!»
Hacı Baba əllərini bir-birinə vurub deyir: «Molla Mirzə Ağa, o qızı mən almaq istəyirdim. Hayıf ki, Ağa Zeynal məndən qabağa düşdü. Eybi yoxdur, əvvəlcə onun elçiliyini edərsən, sonra da mənim xahişimi yerinə yetirərsən, görək qız atası kimə razı olacaq.»
Molla Mirzə Ağa gedir. Məmməd cəfərin qapısını döyür.
Qapını açırlar, içəri girib oturur. Məmməd cəfər soruşur: «Molla, xeyir olsun, nə məsələ üçün gəlmisən?» Molla Mirzə Ağa deyir: «Xeyirdir, inşallah. Məni Kərbalayı Ramazan sənin qapına göndərib. Allah buyuranla qızını onun oğluna vermənizi xahiş edir. Yolda mən gələndə Hacıməmmədhaşım oğlu Hacı Baba da məni gördü, xahiş etdi ki, onun üçün də elçilik edim».
Qız atası Məmməd cəfər fikrə gedir, istəyir ki, yanındakı həmsöhbəti Muradalı ilə məsləhət eləsin. Bu vaxt molla Mirzə Ağa sözünə davam edərək deyir: «Kərbalayı, üzüm ayağının altında, axı mən də subayam, mən də qızını almaq istəyirəm!»
Müxtəsər gülüşmədən sonra Məmməd cəfər həmsöhbətindən soruşur: «Necə bilirsən, qızı Bunların

hansına verim?» Həmsöhbət deyir: «Mənim boynuma böyük təklif qoydun! Ancaq heç biriniz məndən inciməyiniz, sözümü deyim... Ağa Zeynal bir yaxşı adamdır, təmiz, özünə görə də güzəranı var. Orucunda, namazında möhkəmdir. Fəqirfüqəraya
əl tutandır. Əliaçıq adamdır. İstəyirsən ki, qızının
həm dünyası olsun, həm axirəti, qızını Ağa Zeynala ver, xoşbəxt olsunlar... O ki, qaldı qalalı Hacıməmmədhaşım oğlu Hacı Babaya, o böyük dövlət sahibidir. Evi-eşiyi var, mülkədardır, gəmisi də İranla alver edir. Ancaq eyş-işrət ilə vaxt keçirəndir. Onun axirəti olmayacaq. Dünyası var.
İstəyirsənsə dünyası qızının olsun, axirəti olmasın, qızını ver Hacı Babaya! Molla Mirzə Ağaya gəldikdə –
mərsiyəxandır, o qədər İmam Hüseyn haqqında yalanlar söyləyib ki, nə bu dünyada, nə də axirətdə yeri var... Qız atası, indi də söz sənindir. Mən öz fikrimi dedim!»
Qızın atası Məmməd cəfər deyir:
- Məsələ aydındır, mən qızımı Ağa Zeynala verirəm!

MƏNİM EŞŞƏYİM ƏVVƏLDƏN QUYRUQSUZ İDİ

Bir kişi tacirin yanına gəlib bir il müddətinə yüz qızıl
borc istədi. Tacir dedi: «Verərəm, ancaq vaxtında
qaytarmasan, ətindən yüz misqal kəsəcəyəm!» Kişi razı oldu.
Yüz qızılı alıb getdi. Yolda oğrular kişinin qabağını kəsib, pulları ondan aldılar. Kişi mə'yus qayıdıb, əhvalatı tacirə danışdı. Tacir pulunun bir ildən sonra da özünə qaytarılmayacağını hiss edib, kişinin ətindən
yüz misqal kəsmək istədi. Kişi razı olmadı. Onda tacir qazıya şikayət etməli oldu.
Onlar şəhərə gedəndə yolda bir xörəkdara rast gəldilər.
Xörəkdarın eşşəyi palçığa batmışdı, o, tacirlə kişini köməyə çağırdı. Tacir getmədi, kişi isə gedib eşşəyin quyruğundan yapışıb dartanda eşşəyin quyruğu qopub kişinin əlində qaldı.
Xörəkdar kişinin yaxasından yapışıb zərərini iddia elədi.
Kişi boyun qaçırdı. Belə olduqda xörəkdar da onlara qoşulub, şikayət üçün qazının yanına yola düşdü. Bir qədər yol getdikdən sonra gördülər ki, bir at qaçır, sahibi yüyürüb onu tuta bilmir. Tacirdən borc alan kişi yerdən bir daş götürüb ata tərəf atdı. Daş atın gözünə
dəydi, atın bir gözü çıxdı. At yiyəsi də əvvəlki şikayətçilərə qoşulub qazının yanına getməli oldu.
Bir qədər yol gedəndən sonra bir kənddə kecələdilər.
Gecə hamı yatandan sonra tacirdən borc alan kişi dama çıxıb qaçmaq istəyəndə qonşu həyətə yıxılıb hamilə qadının üstünə düşdü. Arvad qorxudan uşaq saldı. Əri oyanıb kişini yaxaladı. Əvvəlki şikayətçilər oyanıb, ev yiyəsinə dedilər:
«Darıxma, səhər gedərik qazının yanına, məsələ həll olunar».
Səhər hamısı şəhərə getdi. Qazının qapısına çatanda
qabaqca tacirdən borc alan kişi içəri girdi. Qazının başqa bir adamla qumar oynadığını görüb, tez qayıtdı və bərkdən dedi: «Bir az dayanın, qazı məşğuldur, namaz qılır».
Qazı qumarbazı o biri otağa keçirib, şikayətçiləri qəbul
etdi, onlara qulaq asdı. Qazı gördü ki, hamı onun eybini örtən kişidən danışır və şikayətlənir. Qazı kişiyə tərəfdar çıxaraq tacirə dedi: «Sənin sözün doğrudur, borclu da dediklərini təsdiq eləyir. Amma sən borculunun ətindən yüz misqalı elə kəsməlisən ki, nə

bir noxud artıq olsun, nə bir noxud əskik!» Tacir dedi: «Mən bunu bacara bilmərəm Qazı taciri yüz qızıl cərimə elədi.
Sonra qazı atının gözü çıxana dedi: «Sən də doğru
deyirsən, atın qiyməti yüz tüməndir. Atı tən yarı
şaqqalayaram, kor tərəfi kişiyə verib ondan əlli tümən
alarsan. Salamat tərəfini də sənin üçün qalar». At sahibi razı olmadı. Qazı onu da yüz qızıl cərimə elədi.
Növbə uşaq salan arvadın ərinə çatanda qazı dedi: «Sən gərək arvadını verəsən bu kişiyə, aparsın saxlasın. Altı aydan sonra boynunda altı aylıq uşaq
olanda sənə qaytarar». Kişi acıqlı halda dedi: «Qazı, belə də fitva verərlər? Bu ki, mümkün olan iş deyil?!» Qazı onu da yüz qızıl cərimə elədi.
Axırda qazı xörəkdardan soruşdu: «Kişi, bəs sənin
şikayətin nədir?» Qazının hökmlərini eşidən xörəkdar dedi: «Qazı, qurbanın olum! Heç bir şikayətim yoxdur. Mən elə bunlara tamaşa etməyə gəlmişəm. Mənim eşşəyim elə əvvəldən quyruqsuz idi!»

TƏK SƏBİR
Kəndin mollası Qafar kişi şəhərə getməyə hazırlaşırdı
ki, arvadı tək səbir gətirdi. Arvad kişiyə dedi:
- A kişi, yaxşısı budur getmə. Sən yaxşı bilirsən ki, tək
səbir bizə düşmür. Bu səfərdən xeyir görməzsən.
Molla dedi:
- Arvad, nəhy gətirmə, əstəqfər elə! Onsuz da mən
getməliyəm.
Molla geyinib yola çıxdı. Az getmişdi, çox getmişdi,
qarşısına qızmış bir dəvə çıxdı. Molla qorxub qaçmağa başladı. Dəvə də onun ardınca qaçırdı. Artıq az qalmışdı ki, dəvə mollaya çatsın, birdən qarşıda bir qaya göründü. Qayanın altı oyuq idi. Molla özünü qayanın altına saldı. Dəvə qayaya çatıb dizlərini yerə dayadı və başını qayanın altına soxdu. Molla özünü qayanın dibinə çəkdi ki, dəvənin ağzı ona çatmasın, birdən nə görsə yaxşıdır: yekə bir ilan qıvrılıb, dilini bayıra çıxarıb, başını da o yan-bu yana tərpədir, elə bil
ki yalvarır. Molla diqqətlə baxıb ilanın başında yekə bir əqrəb gördü. O, əlindəki ağacla əqrəbi salıb öldürdü. Bu anda ilan sürünərək, qayanın altından çıxıb dəvəni sancdı. Dəvə öldü.
Molla qayanın altından çıxıb kəndə qayıtmaq istəyəndə ilan insan kimi dil açıb dedi: «Dayan!» İlan qayanın altına girdi və ağzında bir qızıl qayıtdı. Qızılı mollaya uzadıb dedi: «Etdiyin bu yaxşılığın əvəzində hər gün gəl, bir qızıl apar!»
Molla bir neçə müddət hər gün gəlir ilanın yuvasının
ağzında dayanır və deyirdi: «Gəlmişəm!» İlan da çıxıb ona bir qızıl verirdi.
Mollanın oğlu atasının hər gün ilandan bir qızıl
almasından xəbər tutmuşdu. O, atasından bixəbər bu qərara gəldi ki, yəqin ilanın yuvasında xəzinə var, gedib ilanın yuvasını dağıtsın, özünü də öldürsün, qızılları yığıb götürsün. O, qaya olan yerə gəldi. İlanı axtarıb tapdı. Onu bellə vurub öldürmək istədi. İlanın ancaq quyruğu kəsildi.
İlan özünü oğlanın üstünə atdı və onu çaldı. Oğlan öldü.
Molla qızıl üçün gələndə oğlunun ölüsünü gördü.

Ağlaya-ağlaya onu götürüb, apardı, dəfn etdi. Arvadı dedi:
- A kişi, sənə demədim ki, tək səbir bizə düşmür!
Oğlanın dəfnindən üç gün keçdi. Molla yenə ilanın
yuvasının ağzına gəlib çağırdı. İlan yuvadan çıxıb mollaya dedi: «Məndən quyruq yarası, səndən oğul yarası – bunlar yaddan çıxmaz. Daha bir də buralara gəlmə, yoxsa səni də çalaram!»

AT DEMİŞDİM, EŞŞƏK DEMƏMİŞDİM!
Kərbəlayı Mirzağanın molla tayfasını görməyə gözü yox idi. Günlərin bir günü Kərbalayı Mirzağa qonşusu Qara Qədirə tapşırır ki, ona yaxşı bir at alsın.
Qara Qədir çox zarafatcıl bir adam idi, özü də yaxşı
bilirdi ki, Kərbalayının mollalardan zəhləsi gedir. Buna görə də qəsdən tanış bir molla ilə Kərbalayı Mirzağanın yanına gəlir. Kərbalayı Mirzağa mollanı görüb, Qara Qədirə deyir: «A kişi, yekə adamsan! Mən sənə at demişdim, eşşək
deməmişdim!»

AYƏNDƏ DÜŞƏR ŞƏNBƏYƏ NOVRUZ
Bir xaxam (yəhudilərin ruhanisi deməkdir) özünü
yalandan müsəlman qələmə verib, şahın sarayında qulluq edirdi. Çox çəkmədi ki, şahın yaxın adamı oldu, baş vəzir vəzifəsinə keçdi. Şah vəzirsiz bayram keçirməzdi.
Bir dəfə novruz bayramı şənbə gününə düşmüşdü.
Vəzirdən başqa hamı: xan və əyanları məclisdə hazır idi. Şah qulluqçuları göndərir ki, vəziri çağırsınlar. Qulluqçular gəlib onun sözünü vəzirə yetirirlər.
Yəhudilər kimi vəzir də şənbə günü ibadət eləyirdi.
Vəzir qulluqçuya iki qızıl verib deyir: «Get padşaha de ki, vəzir xəstədir, gələ bilmir!»
Novruz bayramını şah vəzirsiz keçirir.
O biri il də bayram günü vəzir şahın məclisinə gecikir.
Şah qulluqçunu vəzirin dalınca göndərir. Qulluqçu gəlib vəzirə deyir: «Şah səni çağırır, yenə iki qızıl ver, gedim deyim naxoşdur, gələ bilmir».
Vəzir deyir: «Gəl gedək, həmişə Novruz bayramı
şənbəyə düşməz ki!»
Odur ki, deyiblər: «Ayəndə düşər şənbəyə Novruz!»

NİSYƏ, GİRMƏZ KİSƏYƏ
Kərbalayı Dadaşın İçərişəhərdə dörd qapıdan ibarət
əllaf dükanı var idi. Ağ un, kəpəkli un alveri edərdi. Bir gün onun qonşusu molla Müştaq gəlib xahiş elədi ki, ona iki kisə nisyə un versin.
Kərbalayı Dadaş çoxbilmiş adam idi. Yaxşı bilirdi ki,
molla tayfasının verməklə arası yoxdur. Nisyə un buraxsa, sonra pulunu molladan ala bilməyəcək. Ona görə də hiylə işlətməyə başladı: «Molla Müştaq, axı sən Qur'anı başdanbaşa əzbər bilirsən! Hər cümə axşamı ölülərin ruhuna yasin surəsini xətm eləyirsən. Sənə öyrətmək istəmirəm, ancaq yadına salıram ki, yasin surəsində belə bir ayə var: xalqa nisyə mal buraxmayın, ciblərinizi kəsərlər... İndi, molla Müştaq, sən özün de, allahın hökmündən çıxa bilərəmmi?
Əlbəttə, yox! Ona görə də məni bağışla, nisyə un buraxa bilməyəcəyəm. Atalar demişlər: «Nisyə, girməz kisəyə!»

Molla müştaq lal-dinməz, əli ətəyindən uzun evinə
qayıdır.

## SEYİD ƏHMƏD

Seyid Əhməd məhəllə məscidinin azançısı idi. Bir gün
minarəyə çıxıb azan verən zaman qonşu həyətdə bir təzə gəlin gördü. Uzaqdan-uzağa gəlinə bənd oldu. Minarədən aşağı enib, ona necə dil tapmaq barədə fikirləşdi. Əhvalatı məscidin mollasına danışdı. Molla isə fırıldaqçının biri idi.
Seyid Əhmədin «qulağını kəsmək» məqsədilə ona dedi: «Heç fikir eləmə, o gəlini sənin üçün düzəltmək
mənim boynuma. Xoşbəxtlikdən əri də burada yoxdur, səfərdədir. Sən bir ipək köynək al, aparım verim ona və ondan sənin üçün razılıq alım».
Azançı Seyid Əhməd gedib bir ipək köynək alıb mollaya verdi ki, gəlin üçün aparsın. Amma molla göynəyi gəlin üçün yox, öz evinə apardı. Sonra gəlib köynəyi gəlinə necə verdiyini azançıya danışdı və işin bu günlərdə duzələcəyini söylədi.
İkinci gün azançı minarəyə çıxıb həvəslə azan verməyə başladı. Arabir gəlin olan həyətə boylanırdı, amma gəlin heç ona tərəf baxmırdı. Azançı mə'yus halda minarədən enib, gəldi mollanın yanına: «Heç gəlin mən tərəfə baxmadı. Bu necə işdir?»
Molla dedi: «Yəqin gəlin sənə tərəf baxmağa utanıb.
Mən bu gün onun yanına gedərəm, təzədən tapşıraram, sənə tərəf baxar. Gəl, sən onun üçün bir xara tuman da göndər».
Seyid Əhməd xara tuman alıb mollaya verdi ki, gəlin
üçün aparsın.
Molla yenə də əvvəlki kimi xaranı evinə apardı.
Azançı üçüncü gün minarəyə çıxıb azan verməyə
başladı, fikri isə elə gəlində idi. Amma gəlin yenə öz işi ilə məşğul olub azançıya tərəf baxmadı.
Azançı bu dəfə də ovqatı təlx, acıqlı minarədən endi,
birbaş mollanın yanına gəlib dedi: «Lap təəccüblü işdir! Gəlin heç mənə tərəf baxmır».
Molla bu dəfə də Seyid Əhməddən gəlinə xırda xərclik
etmək üçün üç manat alıb, qoydu cibinə.
Seyid Əhməd minarədə azan verəndə gördü ki, gəlin
həyətdə inək sağır, amma yenə ona tərəf baxmır. Seyid Əhməd darıxdı və azan verə-verə gəlinə bir necə söz eşitdirmək istədi. Dedi: «Ay gəlin! Sənə ipək köynək göndərmişəm! Allahü-əkbər!»
Gəlin azançının söz atdığını duyub, ona sataşmaq
məqsədilə, inəyi sağa-sağa oxudu:
Almışamsa, əldən olum,
Görmüşəmsə, gözdən olum!
Püşü-püşü, nənəm, nənəm,
Səni sağan mənəm, mənəm!
Azançı: Xara tuman göndərmişəm!
Həyyə-ələl-fəlah!
Gəlin: Almışamsa əldən olum,
Görmüşəmsə, gözdən olum!
Püşü-püşü, nənəm, nənəm,

Səni sağan mənəm, mənəm!
Azançı: Göy üçlük də göndərmişəm!
Həyyə-ələl-fəlah!
Gəlin: Almışamsa əldən olum,
Görmüşəmsə, gözdən olum!
Püşü-püşü, nənəm, nənəm,
Səni sağan mənəm, mənəm!
Azançı: Səni mən görmək istərəm,
Üz-üzə durmaq istərəm!
Qəlqa-mətis-səlah!
Gəlin:
Ərim gedib ziyarətə,
Sabah bəlkə heç gəlməyə!
Sən gəlməsən, mən ağlaram,
Püşü-püşü, nənəm, nənəm,
Səni sağan mənəm, mənəm!
Azançı: Həyətinizdə it bağlanıb,
Mən də itdən çox qorxuram!
Lailahəilləllah!
Gəlin: Qorxma, iti mən bağlaram,
Qabağına ət doğraram.
Sən gəlməsən, mən ağlaram!
Püşü-püşü, nənəm, nənəm,
Səni sağan mənəm, mənəm!
Azançı: Mənim niqtim lap kəsilib,
Acından da lap ölürəm,
Lailahəilləllah!
Gəlin: Yük altında aş qoymuşam,
Üstünə lavaş qoymuşam,
Yan bacanı boş qoymuşam,
Sən gəlməsən, mən ağlaram,
Püşü-püşü, nənəm, nənəm,
Səni sağan mənəm, mənəm!
Azançı Seyid Əhməd kefi kök minarədən endi və gəlinin görüşünə getməyə hazırlaşdı. Gəlin əhvalatı ərinə söylədi. Seyid Əhmədə nə cür cəza verməyi fikirləşdilər. Bacanın qabağında olan ocağı yandırıb, üstünə gülab səpib, gəldi gəlinin evinə. Gecə bərk qaranlıq idi. Seyid Əhməd çox çətinliklə özünü bacaya yetirdi. Başın bacaya soxub içəri keçmək istəyəndə, pusquda durmuş ev sahibi azançını içəri itələdi. Azançının əlləri sacın üstünə
düşüb yandı və o, evin içinə yıxıldı. Gəlinin əri içəri girdi. Nə yemisən, turşulu aş! Seyid Əhmədi o ki var döyüb, ölümcül halda evindən qovdu.

ŞAHSƏNƏMİN QIZI PƏRİXANIMIN ƏHVALATI

Şahsənəmin gözünün ağı-qarası bir qızı var idi. Adı
Pərixanım idi. Şahsənəm bir dəfə uzaq səfərə getməli oldu.
Qızını şəhərin qazısına tapşırıb getdi. Bir neçə gün keçmişdi ki, şorgöz qazı bir könüldən

min könülə Pərixanıma vuruldu.
Pərixanım qazının hərəkətini başa düşüb qorxdu,
başına çarə axtarmağa başladı. Gecə xəlvətcə aşağa düşüb, çayın qırağında bağlanmış qayığa mindi. Səhərə kimi qayıqla yol getdi. Bir meşənin içindən keçəndə qayır bir ağac kökünə ilişib dayandı.
Pərixanım heyvanların qorxusundan bir ağaca çıxdı və
fikirləşməyə başladı.
Həmin gün qonşu padşahın oğlu meşəyə gəlib ov
edirmiş. Şahzadə at belində bir ceyrana rast gəlir. O,
meşənin qalın yerində ceyranı itirir və onu axtarmağa
başlayır. Birdən Pərixanımı ağacda görür. Gözlərinə inanmır.
Soruşur: «Sən kimsən, haralısan, ağaca niyə çıxmısan?»
Pərixanım başına gələnləri danışır. Şahzadə bir
könüldən min könülə qıza vurulur. Onu atın tərkinə mindirib evinə gətirir. Ata-anasına bildirir ki, mən öz ovumu eləmişəm, bu qızla evlənəcəyəm.
Qırx gün, qırx gecə toy olur, Pərixanımı tapşırırlar
şahzadəyə.
Bu əhvalatdan dörd il keçir. Onların iki uşağı da olur.
Pərixanım deyir: «Dörd ildir ata-anamı görməmişəm,
istəyirəm icazənizlə onların yanına gedəm».
Tədarük görürlər. Pərixanımı baş vəzirə qoşub yola
salırlar.
Baş vəzirin Pərixanımı görən gözü yox idi, öz qızını
şahzadəyə vermək fikrində idi. Odur ki, yolda Pərixanıma xəyanət etmək fikrinə düşür.
Pərixanım vəzirin fikrini başa düşür. Gecə yarıdan
keçmiş uşaqlarını götürüb meşəyə qaçır. Vəzir səhər
Ayılanda Pərixanımı görmür. Meşəyə adam saldırır, lakin onu tapa bilmirlər. Axtarışlar nəticə vermir. Vəzir geri qayıdıb əhvalatı padşaha xəbər verir. Padşah oğlu ilə bərabər vəziri götürüb Şahsənəm olan vilayətə gedir.
Bu zaman Pərixanım öz uşaqları ilə meşənin kənarına
çıxır. Bir qarıya rast gəlib, onun alaçığında dincəlirlər.
Bir gün Pərixanım qarının çoban oğluna pul verib
şəhərə göndərir, bir saz aldırır, iki də qoyun qarnı. Qarını başına keçirib özünü keçəl qıza oxşadır. Paltarını çıxarıb
qarıya verir, özü isə qarının paltarını geyir ki, onu
tanımasınlar. Uşaqları qarıya tapşırıb, qarının oğlu ilə şəhərə gedir.
Elə həmin gün şahzadə, atası və vəzir Pərixanımın atası evinə gəlib çıxmışdılar.
Şahsənəm məclis qurub qızına yas saxlayırdı: Məclisdə şahzadə, atası və vəzir yuxarı başda əyləşmişdilər. Şəhərin qazısı da orada idi. camaat şirin söhbət edirdi. Elə bu dəmdə qarının oğlu ilə Pərixanım özlərini içəri salırlar.
Məclisdə çox danışıq gedirdi ki, görəsən qızın başına nə gəldi. Qarının oğlu ayağa qalxıb dedi: «Şah sağ olsun, mənim bu keçəl bacım Pərixanımın haqqında bir əhvalat bilir, icazə verin danışsın». İcazə verirlər. Çoban deyir: «Şah, qurbanın olum, xahiş edirəm ki, keçəl bacım Pərixanımın əhvalatını danışıb qurtarana
qədər məclisdə olanların heç biri bayıra çıxmasın, qapılar bağlansın».
Keçəl qız əlində saz irəli yeriyib danışmağa başladı:

«Mən bu məclisdə sazsız danışacağam. Bu şəhərin padşahı Şahsənəm neçə il bundan əvvəl uzaq səfərə getməli olur. Gözünün ağı-qarası təkcə qızı Pərixanımı şəhərin qazısına tapşırır. Qazı namərdliklə qıza xəyanət etmək istəyir. Qız əhvalatı başa düşür, gecə yarısı həyətə düşüb, canını qurtarmaq üçün qayığa minib çayla üzüaşağı üzür. Səhərə yaxın qayıq ağac kökünə ilişir. Qız heyvanların qorxusundan qayıqdan düşüb ağaca çıxır. Ağacda fikirləşib çarə axtaranda
cavan bir ovçu gəlib ona köməklik göstərir və evinə aparır.
Sonra onunla evlənir. Qız orada dörd il yaşayandan sonra, iki uşağı ilə öz vilayətinə gəlmək istəyir. Həmin
məmləkətin padşahı gəlini Pərixanımı öz vəzirinə qoşub yola salır.
Namərd vəzir yolda qıza xəyanət etmək istəyir. Qız gecə ikən qaçır, canını vəzirin əlində qurtarır. Pərixanım meşədən çıxıb xeyli yol gedir, bir qarıya rast gəlir. Qarının oğluna qoşulub bu məclisə gəlir».
Pərixanım bu sözləri deyib başından qoyun dərisini
çıxarır, qaçıb atasını qucaqlayır. Qazını, vəziri tutub
cəzalandırırlar.